**Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən**
**2024-cü ildə görülmüş işlər barədə geniş Hesabat**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş **"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"**dən irəli gələn vəzifələrin qlobal sosial-iqtisadi sahələrdə uğurla həyata keçirilməsində 2024-cü ildə də **əqli mülkiyyət sistemi** əhəmiyyətli rol oynamışdır. "Milli Prioritetlər"in "dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" və "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" istiqamətləri üzrə nəzərdə tutulan tədbirlər əqli mülkiyyəti müasir iqtisadiyyatın davamlı inkişafını təmin edən əsas faktorlardan birinə çevirmişdir.

Hesabat ilində aşağıda qeyd edilən istiqamətlər üzrə əvvəlki illərdə başlanılmış işlər uğurla davam etdirilmiş və bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir:

**1.** Ölkə Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş **"Azərbaycan Respublikasının 2022-2026-cı İllərdə sosial-iqtisadi inkişaf Strategiyası"**na uyğun olaraq ixtira və patent fəallığının artırılması, texnologiyaların kommersiyalaşdırılması və transferi, ixtira və faydalı modellərin beynəlxalq qeydiyyatının stimullaşdırılması, çevik patent qeydiyyatı prosedurlarının yaradılması, patentlərə dair beynəlxalq göstəricilər əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat sahələrinin müəyyən edilməsi Əqli Mülkiyyət Agentliyinin (bundan sonra - **Agentlik**) diqqət yetirdiyi prioritet istiqamətlərdən biri olmuşdur.

Azərbaycan məhsullarının "Made in Azerbaijan" brendinin hədəf bazarlarında aktiv təşviqi davam etdirilmişdir.

**2. Ölkənin innovasiya siyasətinin həyata keçirilməsinə xidmət göstərilməsi** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən strateji siyasətindən irəli gələn institusional islahatlar çərçivəsində əqli mülkiyyətin yeniləşən mahiyyətinə uyğun olaraq unikal idarəetmə qurumu kimi yaradılmış Agentliyin fəaliyyətinin əsas istiqamətini təşkil edir. Milli əqli mülkiyyət institutunun fəaliyyət istiqamətləri yeni çağırışlara uyğun dəyişərək, daha mükəmməl və daha çevik idarəçilik funksiyaları ilə tamamlanmışdır. Onun konteksti və Agentliyin yalnız xidməti sahə olması, əqli mülkiyyət obyektlərinin ekspertizası, qeydiyyatının aparılması və qorunma (mühafizə) sənədlərinin verilməsi ilə məhdudlaşmır. Bunlar eyni zamanda qorunmanın səmərəliliyi nəzərə alınmaqla analitik trendləri ölçən, bazarın rəqabət qabiliyyətinə təsir göstərən və bununla iqtisadi funksiyalar daşıyan, habelə qorunan obyektlərin sosial-mədəni hissəsini təhlil edən struktura və innovasiyaların fəal aktoruna çevrilmişdir. Əqli mülkiyyət ekosistemi qurularaq, ölkəmizdə uğurla həyata keçirilən islahatların ƏM-lə əlaqəli təsiri və ƏM-in dəyişmiş, yenidən dərk edilən kontekst amilləri nəzərə alınmışdır.

ƏM qarşısında duran vəzifələr dövlətimizin başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasəti ilə formalaşdırılıb. Bununla da ƏM bu siyasətin təsirinə və innovativ inkişafına adekvat xidmət etməli, investisiyaların cəlb edilməsində və innovasiyalara dəstək verilməsində bundan sonra da real aktora çevrilməli, öz-özlüyündə abstrakt xidmət vasitəsindən sosial-iqtisadi uğurların aparıcı amillər sırasında layiqli yerini tutmalıdır.

Əqli mülkiyyətin idarəçiliyi sahəsində Azərbaycanın müsbət təcrübəsi nəzərə alınaraq Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən milli əqli mülkiyyət ofislərinin yaradılmasına dair təlimatların hazırlanması məqsədilə dünya üzrə 204 ofis arasından seçilmiş 15 ölkənin ofisləri siyahısına Azərbaycan Əqli Mülkiyyət Agentliyinin də daxil edilməsi qeyd edilənlərin təsdiqidir. Ölkəmizin bu sahədə təcrübəsinin MDB məkanında geniş yayılması məqsədilə Avrasiya Patent Təşkilatı (APT) tərəfindən "Müasir əqli mülkiyyət ofisinin formalaşması və fəaliyyəti" mövzusunda geniş prezentasiyanın (məqalənin) hazırlanması sifariş olunmuş və Agentliyin İdarə Heyətinin sədrinin məqaləsi nüfuzlu peşəkar "Əqli mülkiyyət: Sənaye mülkiyyəti" jurnalının xüsusi buraxılışında (Moskva, 2023, №5) dərc etdirilmişdir.

**3. “Yaşıl patent”lər.** Agentlik tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar tədbirlər çərçivəsində Agentlik tərəfindən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ərəfəsində "Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə" (COP29-a doğru) mövzusunda dəyirmi masa keçirilib. “Yaşıl patent”lərə “yaşıl işıq” devizi altında keçirilən tədbirdə “yaşıl” texnologiyaların ixtira və faydalı model kimi patentləşdirilməsi və onların qeydiyyata alınması prosedurlarının sürətləndirilməsi, habelə bu sahə üzrə dəsdəyin və daha asan icra mexanizminin yaradılması məsələləri geniş müzakirə olundu.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, Milli Məclis üzvlərinin, İqtisadiyyat Nazirliyinin, Elm və Təhsil Nazirliyinin məsul şəxsləri, ali məktəblərin rəhbərləri və ictimai təşkilatların nümayəndələri iştirak ediblər.

“Dəyirmi masa”nın açılışında Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Azərbaycan Respublikası Milli Məclisinin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, mədəniyyət nazirinin müavini Səadət Yusifova, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev çıxış edərək dəyirmi masanın mövzusunun aktuallığını qeyd ediblər.

Tədbirdə həmçinin dünya təcrübəsi və beynəlxalq təhlillər nəzərə alınmaqla Agentliyin İdarə Heyətinin sədri K.İmanov jurnalistlər üçün brifinq keçirib və “Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə (COP29-a doğru)” mövzusunda geniş prezentasiya (təqdimat) edib. Təqdimatda iqlim dəyişikliyi ilə bağlı ümumi mənzərə, dünya miqyasında patent fəaliyyəti, o cümlədən Azərbaycanda patent fəaliyyətinin nəticələri haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, “yaşıl” texnologiyalar ixtira və ya faydalı model kimi qeydiyyata alınmaqla bu obyektlərə **"yaşıl patent”**lər əldə etmək mümkündür.

O, həmçinin qeyd edib ki, “yaşıl” gələcəyi arzulayan bəşər cəmiyyətini quranların ilk sıralarında ixtiraçılar və müəlliflər durur. Patent sistemi innovasiyaları və iqtisadi texnologiyaların yayılmasını dəstəkləyir, yaradıcı müəllif təfəkkürü və sənaye nümunələrinin qorunması mexanizmləri isə faydalı, cəlbedici və səmərəli məhsulların yaradılmasında resurslardan optimal istifadəyə və yayılmasına kömək edir. Əmtəə nişanlarının və digər fərqləndirici nişanların qorunması sistemi müəssisələrin artmasına təsir göstərir və iqtisadiyyatın inkişafını dəstəkləyir, coğrafi göstəricilər ehtiyatların dayanıqlı istehlakına yardım edir, seleksiya hüquqları isə daha davamlı bitki sortlarının yetişdirilməsinə kömək edir və bununla da ərzaq təhlükəsizliyinə təsir göstərir.

Agentliyin rəhbəri bildirib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına uyğun olaraq, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) 2010-cu ildə Beynəlxalq Patent Təsnifatının “yaşıl” reyestrini nəşr etdirmişdir. Bu reyestr üzrə “yaşıl” patentlərin verildiyi yeddi kateqoriya müəyyən olunub: **alternativ enerji istehsalı; nəqliyyat, enerjiyə qənaət; tullantıların idarə edilməsi; kənd və meşə təsərrüfatı; inzibati idarəetmə; normativ-layihə; nüvə enerjisi.**

“Yaşıl patent” qeyd olunan sahələrdən birinə aid olan və iqlim problemlərinin həllinə yönəlmiş ixtiralara müstəsna hüququ təsdiq edir. Ədəbiyyatda "yaşıl patent" anlayışının qısa izahı belədir: “Yaşıl patent” dedikdə mövcud patentləşdirilmiş texnologiyalardan fərqli olaraq, iqlimə daha az təsir göstərən texnologiyalara aid patent başa düşülür.

K.İmanov patent sahəsində Agentliyin əldə etdiyi yekunlar dövlət başçısı İlham Əliyevin təşəbbüsü və səyləri nəticəsində aparılan islahatların nəticəsi olduğunu bildirir. O, qeyd edir ki, ixtiraçıların və sahibkarlıq subyektlərinin yaradıcılıq fəaliyyətinin dəstəklənməsi üçün sənaye

mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı iddia sənədlərinin qəbulunun Əqli Mülkiyyət Agentliyində yaradılan “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) rəqəmli informasiya sistemi 24/7 rejimində fəaliyyət göstərir. Şəffaflığın və məlumatlara əlçatanlığın təmin olunması üçün Sənaye Mülkiyyəti Obyektlərinin Reyestri – ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərə dair “Açıq reyestrlər” yaradılmışdır.

ÜƏMT müasir çağırışlara cavab verən milli əqli mülkiyyət ofislərinin yaradılmasına aid təlimatların hazırlanması məqsədilə dünya üzrə 204 ofis arasından 15 ölkənin mükəmməl idarəetmə strukturuna və inzibatçılıq mexanizmlərinə malik olan ofisləri sırasına Azərbaycanın Əqli Mülkiyyət Agentliyini də daxil edib.

Müstəqil Dövlətlər Birliyi məkanında fəaliyyət göstərən Avrasiya Patent Təşkilatı əqli mülkiyyət sahəsində Azərbaycanın müsbət təcrübəsini nəzərə alaraq “Müasir əqli mülkiyyət ofisinin formalaşması və fəaliyyəti” mövzusunda geniş prezentasiya və məqalə sifariş edərək, onu Moskvada nəşr olunan tanınmış peşəkar “Əqli mülkiyyət: Sənaye mülkiyyəti” jurnalının xüsusi buraxılışında (2023, №5) dərc etdirmiş və Avrasiya Patent Təşkilatının rəhbəri tərəfindən həmin təcrübədən geniş istifadə etmək tövsiyə olunmuşdur.

K.İmanov Qlobal İnnovasiya İndeksi-2024 Hesabatında Agentliyin bilavasitə sərəncamında olan göstəricilərin artdığını, patentlərlə bağlı Cənubi Qafqazda liderlik əldə edildiyini xüsusi vurğulayaraq, ixtiralar üzrə iddia sənədlərinin ekspertiza müddətinin ümumi qaydaya görə 12 ay təşkil etdiyi halda orta hesabla 8-9 aya endirildiyini, MDB məkanında ilk olaraq ixtira, faydalı model və sənaye nümunələrinə dair iddia sənədlərinin 3D formatında qəbuluna başlanıldığını bildirib. Əmtəə nişanına dair iddia sənədinin mahiyyət üzrə ekspertiza prosedurlarının müddəti orta hesabla 3 ay (beynəlxalq təcrübədə 6-12 ay), sürətli ekspertizanın müddəti isə iddia sənədinin baxılmağa qəbul edildiyi tarixdən bir ay əvəzinə 15-20 gün təşkil edir (Prezentasiya (təqdimat) bütünlüklə **“Xalq qəzeti”**nin 2024-cü il 5, 6 və 8 noyabr tarixli nömrələrində dərc edilmişdir).

“Dəyirmi masa”da Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçmiş “yaşıl patentlər”ə dair müzakirələr keçirilib. Elm və Təhsil Nazirliyi Radiasiya Problemləri İnstitutunun direktoru İslam Mustafayevin “Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji problemlər”, Azərbaycan Milli Aviasiya Akademiyasının yeni texnologiyalar üzrə prorektoru Xəqani Abdullayev və Azərbaycan Milli Aviasiya Akademiyasının Kimya materialları və nanokompozitlər laboratoriyasının rəhbəri Nəriman Cavadovun “Neft qurğularında istifadə olunması üçün ekoloji təmiz örtüklər”, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin “Neftin, qazın geotexnoloji problemləri və kimya” Elmi-Tədqiqat İnstitutunun Ekologiya laboratoriyasının aparıcı elmi işçisi Ruqiyyə İsmayılovanın “Bərk məişət tullantılarından üzvi - mineral gübrənin alınması üsulu”, Elm və Təhsil Nazirliyinin Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun Əlvan metal tərkibli mineral xammalın emalı laboratoriyasının elmi işçisi Aysel Muradovanın “Daşkəsən kobalt filizinin zənginləşmə tullantılarından kobaltın çıxarılması üsulu”, Azərbaycan Texniki Universitetinin “Mühəndis fizikası və elektronikası” kafedrasının baş elmi işçisi Musa Əsədovun “Dayanıqlı su-neft emulsiyalarının qarşısının alınması”, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Mühəndis sistemləri və qurğularının tikintisi kafedrasının müdiri Nurməmməd Məmmədovun “Su və torpağın təmizlənməsi üçün istifadə olunan qurğular”, Azərbaycan Milli Aviasiya Akademiyasının Elmi İstehsalat Birliyinin Elmi-Tədqiqatlar İnstitutunun Biofiziki cihazlar şöbəsinin müdiri Ənvər İsayevin “Torpağın çirkləndirilməsi ilə bağlı qida təhlükəsizliyinin təmin edilməsi”, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Mineral gübrələr kafedrasının aparıcı elmi işçisi Vüqar Cəfərov və Elm və Təhsil Nazirliyinin Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun Qeyri-üzvi və sintetik sorbentlər laboratoriyasının aparıcı elmi işçisi Zarema Cabbarovanın “Məişət tullantı sularının təmizlənməsi zamanı əmələ gələn aktiv lildən üzvi

gübrənin alınması üsulu", Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutunun "Bərpa olunan enerji növlərinin çevrilməsi" laboratoriyasının müdiri Oktay Salamovun "Bərpa olunan enerji mənbələri əsasında yaradılan müxtəlif təyinatlı energetik qurğular", Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Neftin, qazın geotexnoloji problemləri və kimya" Elmi-Tədqiqat İnstitutunun Kataliz və neft emalı laboratoriyasının elmi işçisi Kəmalə İsmayılovanın "Torpağın dənli bitkilərin yetişdirilməsi üçün zənginləşdirilməsi üsulu" adlı ixtiraları barədə tədbir iştirakçılarına geniş məlumatlar verilib.

**4. İnfrastrukturun təkmilləşdirilməsi və institusional dəyişikliklər çərçivəsində** bir neçə ildir ki, 24/7 rejimində fəaliyyət göstərən "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi, şəffaflığın və məlumatlara əlçatanlığın təmin olunması sahəsində növbəti addım olaraq hesabat dövründə Sənaye Mülkiyyəti Obyektlərinin Reyestri – ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərə dair "Açıq reyestrlər" yaradılmışdır. Hər kəs "Açıq reyestrlər"ə maneəsiz və ödəniş etmədən daxil ola, o cümlədən patent almaq istəyən və ya əmtəə nişanını qeydiyyatdan keçirmək istəyən şəxs patentlər və əmtəə nişanları barədə məlumatları əldə edə bilər.

Yeni infrastruktur layihələrindən biri kimi yaradılmış "Çağrı Mərkəzi"nə hesabat dövründə **25 mindən** çox müraciət daxil olmuşdur.

**Sual-cavab kateqoriyası üzrə daxil olan zənglərin təsnifatı aşağıdakı kimidir:**

| | |
|---|---|
| Əmtəə nişanlarına dair | - **11178** zəng |
| İxtiraya dair | - **2400** zəng |
| Sənaye nümunəsinə dair | - **147** zəng |
| Faydalı modelə dair | - **79** zəng |
| Reyestrlə bağlı | - **2385** zəng |
| Xidmət haqqı və dövlət rüsumunun ödənişi ilə bağlı | - **1713** zəng |
| PƏNAH sistemindən istifadə ilə bağlı | - **1207** zəng |
| Müəlliflik hüququ və əlaqəli hüquqlarla bağlı | - **761** zəng |
| Ümumi məsələlərə dair | - **3555** zəng |
| Hüquqi məsələlər | - **266** zəng |
| Apellyasiya şurasına müraciətlərlə bağlı | - **430** zəng |

**5. Normativ hüquqi bazanın təkmilləşdirilməsi işləri 2024-cü ildə də davam etdirilmişdir.** "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" ölkə Prezidentinin 2024-cü il 2 iyul tarixli 122 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

İxtira, faydalı model və sənaye nümunələrinin ekspertizası prosedurlarının sadələşdirilməsi, o cümlədən ekspertiza müddətinin azaldılması və patentlərə əlçatanlığın asanlaşdırılması məqsədilə "Patent haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə Qanun layihəsi aidiyyəti dövlət orqanları ilə razılaşdırılmış, Agentlik tərəfindən 60-a yaxın qanunvericilik aktının layihələrinə dair rəy və təkliflər verilmişdir.

**6. Əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması və əqli mülkiyyət hüquqları ilə bağlı məlumatlılığın artırılması.** Bu istiqamətdə aparılan işlər hesabat ilində də diqqət mərkəzində saxlanılmışdır. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əqli mülkiyyət hüququ kafedrasının Agentliyin nəzdində fəaliyyət göstərən filialının fəaliyyəti canlandırılmışdır. İlk dəfə olaraq BDU-nun "Əqli mülkiyyət hüququ" və "İnformasiya hüququ" ixtisaslaşması üzrə **9** nəfər magistrantının dissertasiya işlərinin müdafiəsi Agentlikdə keçirilib. Bu ənənə gələcəkdə də davam etdiriləcək.

Agentliyin təcrübəli mütəxəssisləri Azərbaycan Memarlıq və İnşaat Universitetində də yaradılmış Əqli mülkiyyət kafedrasında tədrisə cəlb olunmuşlar. Universitetin müxtəlif fakültələrində **6** istiqamət üzrə əqli mülkiyyət fənni tədris olunur. **54** qrup üzrə **290** tələbəyə bakalavr və **517** tələbəyə magistr səviyyəsində əqli mülkiyyətə aid müxtəlif fənnlər tədris olunur. **30** nəfərə yaxın əməkdaşımız mütəxəssis kimi Universitetdə tədris prosesinə cəlb edilib.

Hesabat ilində Əqli Mülkiyyət Agentliyi ilə Dövlət Reklam Agentliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Memorandumun imzalanmasında məqsəd Azərbaycan dilinin zənginliyinin və saflığının qorunması, dövlət dilindən istifadənin təkmilləşdirilməsi və təşviqi, xarici dildə olan reklam mətnlərinin ədəbi dil normalarına uyğunluğunun təmin edilməsinə dəstək məqsədilə birgə tədbirlərin keçirilməsi, habelə əqli mülkiyyət və reklam haqqında qanunvericiliyin tələblərinə əməl olunması istiqamətində işlərin qarşılıqlı şəkildə təşkilidir. Müştərək fəaliyyət nəticəsində reklam subyektləri ilə görüşlərin təşkili, o cümlədən reklam sahəsində birgə təlimlərin keçirilməsi nəzərdə tutulub.

23 aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü və 26 aprel - Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə Agentlik tərəfindən 2024-cü ilin aprel ayı **"Əqli Mülkiyyət Aylığı"** elan edilmişdir. Aylıq çərçivəsində əqli mülkiyyətin müxtəlif istiqamətləri üzrə maarifləndirici xarakterli silsilə tədbirlər, o cümlədən universitetlərin və elmi-tədqiqat institutlarının mütəxəssisləri, tələbələr, müəlliflər, ixtiraçılar və digər maraqlı şəxslər, habelə müəlliflərin əmlak hüquqlarının kollektiv idarəetmə təşkilatlarının nümayəndələrinin iştirakı ilə "dəyirmi masa"lar, görüşlər və müzakirələr keçirilmiş, əsərlərin qeydiyyat prosedurları, Azərbaycanda ixtiraçılıq və patent analitikası, patent ailələri, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərin ekspertizası, patentləşdirilməsi və qeydiyyatı barədə iştirakçıların sualları cavablandırılmışdır.

Silsilə tədbirlər zamanı Azərbaycanda müəllif-hüquq sisteminin yaradılması və inkişaf mərhələləri barədə dolğun bilgi verilmiş, onlar müəllif-hüquq sahəsində milli qanunvericilik aktları və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) konvensiya və müqavilələri barədə geniş məlumat verilmişdir. İştirakçılara Agentlik tərəfindən hazırlanmış kitab və broşurlardan, xarici müəlliflərin kitablarından və digər materiallardan metodiki vəsait kimi istifadə etmələrinə şərait yaradılmış, onlar kütləvi informasiya vasitələri və müəlliflik hüququ, elmi əsər və müəlliflik hüququ, müəllif-hüquq qanunvericiliyində istisnalar və məhdudiyyətlər, elektron kitabxanalar və müəllif-hüquq məsələləri, rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə, müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyinin prinsipləri, təşkili və həyata keçirilməsi, rəqəmli şəbəkələrdə əqli mülkiyyət hüquqlarının idarə edilməsi ilə bağlı geniş müzakirələrə cəlb olunmuşlar. Aylıq çərçivəsində sənaye mülkiyyəti (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici) barədə də iştirakçılara dolğun məlumatlar verilmişdir. Agentliyin təcrübəli mütəxəssisləri tərəfindən ÜƏMT-nin "Patent hüququ Müqaviləsi"nin (PLT) tələbləri nəzərə alınmaqla ixtiranın qeydiyyatı və patentləşdirilməsi prosedurları, Azərbaycanda ixtiraçılıq və patent analitikası, patent ailələri, habelə sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərin ekspertizası və qeydiyyatı barədə iştirakçıların sualları cavablandırılmışdır.

Müzakirələrin maraqlı və canlı diskussiya şəraitində keçməsi üçün tədbir iştirakçıları Agentlik tərəfindən hazırlanmış metodiki ədəbiyyat, o cümlədən kitab və broşurlar, ÜƏMT-nin müvafiq sənəd və materialları, eləcə də əqli mülkiyyət sahəsində tanınmış beynəlxalq mütəxəssislərin kitabları ilə təmin olunmuşlar. Təlim iştirakçılarına həmçinin "Patent haqqında" Azərbaycan Respublikasının Qanununun, Nazirlər Kabinetinin 2019-cu il 17 dekabr tarixli 478 nömrəli qərarı ilə təsdiq edilmiş "İddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə

ekspertizanın aparılması qaydası"nın və Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının tələbləri barədə geniş məlumatlar verilmiş, Agentliyin İdarə Heyətinin sədri Kamran İmanovun "Azərbaycanda ixtiraçılıq və patent analitikası", əqli mülkiyyət üzrə tanınmış mütəxəssislərdən Y.Kupçovanın "Patent araşdırmaları", V.Şvedovanın "Patent-informasiya tədqiqatlarının aparılması praktikası", N.Popovun "Patent analitikasının əsasları" kitablarından daha dolğun bilgilər əldə edə biləcəkləri vurğulanmışdır.

Təlimdə Agentliyin struktur bölmələrinin, tabeliyində olan qurumlarının əməkdaşları və elmi-tədqiqat institutlarının nümayəndələri iştirak ediblər.

"Müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyinin prinsipləri, təşkili və həyata keçirilməsi" mövzusunda keçirilən tədbirdə isə Agentliyin İdarə Heyətinin sədri K.İmanov kollektiv idarəetmə təşkilatlarının nümayəndələri qarşısında çıxış etmişdir. Belə təşkilatların müəllif-hüquq sahəsinin subyektləri olduğunu bildirən K.İmanov qeyd etdi ki, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununun 41-ci maddəsinin müddəalarına uyğun olaraq, müəlliflər və əlaqəli hüquq sahibləri özlərinin əmlak hüquqlarını fərdi qaydada həyata keçirə bilmədikdə onların əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar yaradıla bilər.

Kollektiv idarəetmə sisteminin mahiyyəti və məntiqi hüquq sahiblərinin və istifadəçilərin maraqlarının ortaq məxrəcə gətirilməsi prinsipini irəli sürür.

K.İmanov onu da bildirdi ki, qarşımızda "hüquqların hansı idarəetmə sistemi – individual, fərdi, yoxsa kollektiv idarəetmə sistemi daha əlverişlidir?" sualı dayanarsa, cavab birmənalıdır: mümkün olduğu halda fərdi idarəetmə daha əlverişlidir, daha üstündür, çünki bu cür idarəetmə müəlliflərin (hüquq sahiblərinin) iradəsinə əsaslanır.

Müasir dünyada texnologiyalar – rəqəmli şəbəkələr, müxtəlif rəqəmli platformalar və qurğular istifadəçilərin həyat tərzini dəyişdirib, tarazlığı pozmaqla onlara üstünlüklər, yeni alətlər təqdim edib. Bununla yanaşı, hüquq sahiblərinə də fərdi qaydada öz hüquqlarının individual idarə edilməsinə şərait yaradılıb.

Azərbaycanda əmlak hüquqlarının kollektiv idarə edilməsi normativ-hüquqi aktlara əsaslanır və könüllü xarakter daşıyır. Müəyyən bir sahədə yeganə təşkilat kollektiv idarəetməni təşkil edərək, yalnız ona hüquqlarının təmsilçiliyini həvalə edən hüquq sahiblərinin hüquqlarını idarə edir. İstisnalar isə müəllif-hüquq qanunvericiliyinin 17-ci maddənin 3-cü hissəsində və 37-ci maddəsində göstərilən private-copy (şəxsi məqsədlər üçün surətçıxarma) və dərc edilmiş fonoqramlarla bağlı müvafiq olaraq, qanuni lisenziyalar əsasında həyata keçirilir.

K.İmanovun fikrincə, bu cür kollektiv idarəetmə cəmiyyətlərinin alternativi "agent növlü" kollektiv idarəetmə təşkilatlarıdır. Əgər "genişləndirilmiş kollektiv idarəetmə" əsərlərdən istifadənin müəyyən sahəsində fəaliyyətin inhisar (monopol) xarakterini və məhdud sayda cəmiyyətləri nəzərdə tutursa, "agent növü" eyni sahədə çoxlu sayda müəllif-hüquq cəmiyyətlərinə əsaslanır. Bunların hər biri məhdud dairədə hüquq sahiblərinin, hətta bir neçə hüquq sahibinin də maraqlarını təmsil edərək fəaliyyət göstərə bilər.

Azərbaycan qanunvericiliyinin "genişləndirilmiş kollektiv idarəetmə" ilə bağlı müəyyən etdiyi məhdudiyyət onunla bağlıdır ki, belə ictimai birlik ancaq ona bu səlahiyyəti vermiş hüquq sahiblərinin maraqlarından çıxış etmək hüququna malikdir. Bununla yanaşı, Qanunun mövcud normasına (43-cü maddə) uyğun olaraq, kollektiv idarəetmə təşkilatına belə hüququ verməmiş hüquq sahibinin ona çatası qonorarı tələb etmək (şərik əsərlər üçün, yaxud bütöv proqrama görə hesablanmış qonorar), həmçinin öz əsərlərinin həmin təşkilatın repertuarından çıxarılmasını tələb etmək ixtiyarı vardır.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan normaya və beynəlxalq təşkilatların qəbul etdiyi təsnifata uyğun olaraq, “məhdud genişləndirilmiş kollektiv idarəetmə” öz-özlüyündə onlara münasibətdə kollektiv idarəetmənin həyata keçirildiyi şəxslərin sayının məhdudlaşdırılmasıdır.

“Əqli Mülkiyyət Aylığı” çərçivəsində “Rəqəmsal dövrdə əqli mülkiyyət” mövzusunda seminar keçirilib. Tədbirin məqsədi ölkəmizdə gənclərin ixtiraçılıq fəaliyyətinə dəstək verilməsi idi.

Seminarda iştirak edən gənc ixtiraçılar təqdimatlar ediblər.

Gənc ixtiraçılardan İvan Kanevskyi və Nihat Abdullayev “Smart oyuncaqda süni intellektin tətbiqi ilə interaktiv təhsilin təmin edilməsi üçün üsul və qurğu”, Ləman Əliyeva və Nihat Abdullayev “Süni intellektlə ətraf mühiti avtomatik təsvir edən ağıllı eynəklərin yeni modeli”, Qabil Hüseynli, Fərid Şixiyev və Rüfət Şixiyev “Tibbi nəqliyyatın avtomatlaşdırılmış idarəetmə sistemi”, Şahin Xəlilov “Avtomatlaşdırılmış suvarma idarəetmə sistemi”, Zamiq Şükürov “Görmə əngəlli insanların hərəkət etməsi üçün yardımçı qurğu”, Çingiz Qurbanlı “Kontaktsız yüksək gərginlikli elektron açar” adlı ixtiraları barədə ətraflı məlumat veriblər. Təqdim olunan ixtiralara patent alınması üçün iddia sənədləri Agentliyə təqdim edilmişdir.

“Əqli Mülkiyyət Aylığı” çərçivəsində “İxtiranın qeydiyyatı və patentləşdirilməsi prosedurları” və “Müəlliflik hüququ və əlaqəli hüquqlar” və “Əmtəə nişanları və coğrafi göstəricilərin ekspertizası və qeydiyyatı” mövzusunda təlimlər də təşkil olunub. Təlimlərdə ÜƏMT-nin tövsiyələrindən, əqli mülkiyyət sahəsində tanınmış mütəxəssislərdən **И.А.Близнец, К.Б. Леонтев, Е.Г.Шаблова, О.В.Жевняк, А.В.Соснин, Е.В. Бадулина və О.В.Черкасованın əsərləri ilə yanaşı K.S.İmanovun kitablarından** (“Azərbaycanın müəllif-hüquq sistemi”, “Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları müasir mərhələdə”, Авторское право в Азербайджане (возможности и перспективы), “Творчество как основа авторства”, “Kütləvi informasiya vasitələri və müəlliflik hüququ: imkanlar və problemlər”, “Elmi əsər və müəlliflik hüququ: imkanlar və problemlər”, “İstisnalar, məhdudiyyətlər və müəllif-hüquq qanunvericiliyi”, “Elektron kitabxanalar (EK), elektron kitabxana sistemləri (EKS) və müəllif-hüquq məsələləri”, “Müəllif hüququna hörmətin aşılanması: rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə (Azərbaycan təcrübəsi)”, “Virtual məkan və müəlliflik hüququnun inkişafı”, “Milli Brendlərimizi qoruyaq”, “Azərbaycanda sənaye nümunələrinin, coğrafi göstəricilərin və əmtəə nişanlarının analitik icmalı”, “Azərbaycana məxsus coğrafi göstəricilər” və s.) da geniş istifadə olunmuşdur.

**7. “Qlobal İnnovasiya İndeksi - 2024”.** Qlobal İnnovasiya İndeksi (QİI) Kornel Universiteti (ABŞ), INSEAD Biznes Məktəbi (Fransa) və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə nəşridir. 2007-ci ildən dərc olunur. 2024-cü il hesabatı sayca 17-ci nəşrdir, hesabata daxil edilmiş məlumatlar **133** ölkənin iqtisadiyyatını əhatə edir. QİI-də Azərbaycana aid məlumatlara da geniş yer ayrılır.

İnnovasiya fəaliyyətinin potensialı, səmərəliliyi və çərçivə şərtlərini əhatə edən təxminən **80** indikator əsasında tərtib olunmuş “Qlobal İnnovasiya İndeksi - 2024”də biliklərin yaradılması istiqamətində bilik və texnologiyaların yayılması blokunda Azərbaycan üzrə yüksək yerləri əqli mülkiyyətə aid göstəricilər tutur. Təhlil edilən indikatorlar qanunvericilik, elm və təhsildən tutmuş bazar, biznes, infrastruktur və s. məsələlərin inkişafına qədər geniş məlumatlar dairəsini ehtiva edir. QİI-nin dərc edilməsinin əsas məqsədi ölkələrin innovasiya fəaliyyətinin mexanizmlərinin səmərəliliyinin qiymətləndirməsinə imkan yaratmaqdan ibarətdir.

Ölkəmiz QİI-nin "Bilik və texnoloji nəticələr" indikatorunun patent alt indikatorunda **50-ci** yerdə qərarlaşıb. Bu da **2023-**cü illə müqayisədə **13** pillə irəliləyiş deməkdir və Cənubi Qafqaz regionunda ən yüksək göstəricidir. Azərbaycan faydalı model patentlərinin sayına görə **49-cu** yerdədir. "Yaradıcı

fəaliyyətin nəticələri" indikatorunun əmtəə nişanı alt indikatorunda da **17** pillə irəliləyərək **49-cu** yerdəyik və bu göstərici üzrə regionun bir çox ölkələrindən irəlidəyik.

QİI-2024 reytinqi innovasiya fəaliyyətinin iki yekunlaşdırıcı - "innovasiya resursları" və "innovasiya nəticələri" alt indekslərinə daxil olan 7 qrup göstəricidən ibarətdir.

"İnnovasiya resurslar" alt indeksi beş qrupa bölünür:

**1-ci qrup:** institutlar;

**2-ci qrup:** insan kapitalı və elm;

**3-cü qrup:** infrastruktur;

**4-cü qrup:** daxili bazarın inkişafı;

**5 ci qrup:** biznesin inkişafı.

2024-cü ilin QİI-nin **lideri** İsveçrədir, onun ardınca İsveç, Amerika Birləşmiş Ştatları, Sinqapur və Böyük Britaniya gəlir. Ən innovativ ölkələrin ilk onluğuna həmçinin Koreya, Finlandiya, Niderland, Almaniya və Danimarka daxildir. Çin reytinqdə **11-ci yeri** tutaraq, ikinci onluq ölkələri sırasına daxil olub. Türkiyə **37-ci** yerdədir.

***Effektiv patent qeydiyyatı prosedurlarının qurulması və əqli mülkiyyət hüquqları ilə bağlı məlumatlılığın artırılması istiqamətində işlər davam etdirilmişdir.*** Görülən tədbirlərin nəticəsi olaraq ölkəmizin mövqeyi QİI hesabatında xeyli yaxşılaşmışdır.

Azərbaycan 2024-cü il QİI reytinqində 95-ci yeri tutur (postsovet məkanına aid olan ölkələr arasında ən yaxşı göstəricilər Estoniyaya (16-cı yer), Litvaya (35-ci yer), Latviyaya (42-ci yer) və Rusiyaya (59-cu yer) məxsusdur. Bu da qeyd olunmalıdır ki, Azərbaycan 87-98-ci yerlər arasında müqayisəli göstəricilərə (statistik etimad intervalı) malik dövlətlər qrupundadır.

**2018-2024-cü illər üzrə QİI alt indeks göstəriciləri**

| Göstəricilər | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** | **2024** |
| QİI | **82** | →**84** | → **82** | →**80** | →**93** | →**89** | →**95** |
| İnnovasiya resursları (input) | **76** | →**77** | → **76** | →**74** | →**79** | →**76** | →**82** |
| İnnovasiya nəticələri (output) | **87** | →**90** | →**86** | →**91** | →**110** | →**104** | →**101** |
| *Reytinqdə iştirak edən ölkələrin sayı: 2018-126; 2019-129; 2020-131; 2021-132; 2022-132; 2023-132; 2024-133.* | | | | | | | |

QİI-nin tərtibatçı-ekspertləri Azərbaycanın **güclü tərəfləri kimi aşağıdakı göstəriciləri qeyd edirlər:** Biznes aparılması üçün siyasət sabitliyi (19-cu yer); Orta məktəbdə şagird-müəllim nisbəti (20); Əmək məhsuldarlığının artımı (28); Klasterin inkişafının vəziyyəti (29); Universitet-sənaye (tədqiqat və inkişaf) əməkdaşlığı (30); Elm və texnologiya üzrə məzunlar (45); İctimai tədqiqat-sənaye üzrə birgə nəşrlər (46); Biznes əməliyyatları üçün stabillik (48); Əmtəə nişanları (49); Patentlər (50). Bununla, reytinq müəllifləri Azərbaycanın güclü tərəfləri kimi 19-dan 50-yə kimi yerləri tutan on göstərici müəyyən ediblər.

Qeyd edək ki, ölkənin güclü tərəflərini xarakterizə edən göstəricilər kimi reytinqin birinci, ikinci və altıncı bloklarının hər birində iki göstərici, beşinci blokda üç göstərici, yeddinci blokda isə bir göstərici müəyyən edilmişdir. Üçüncü və dördüncü bloklarda isə ölkənin güclü tərəflərini əks etdirən göstəricilər müəyyən edilməmişdir.

2024-cü ildə Azərbaycan “İnnovasiya resursları” alt indeksinə görə 82-ci yerdədir. "İnnovasiya resursları" alt indeksi üzrə Azərbaycan reytinqdə postsovet dövlətləri məkanında Qırğızıstanı (86), Belarusu (102) və Tacikistanı (106) qabaqlayır. Bununla belə, ölkənin “İnnovasiya nəticələri” alt indeksinə görə “innovasiya resursları” alt indeksi üzrə tutduğu yerdən 19 yer aşağıdadır (geridədir).

Dövlət idarəetmə orqanlarının rolunu əks etdirən Təsisatlar bloku üzrə Azərbaycan yüksək olan 51-ci yeri tutur, həmçinin biznes işinin stabilliyi göstəricisi üzrə keçən ilə nisbətdə 8 pillə irəliləyək 48-ci yeri tutmuşdur. Qeyd olunan göstərici üzrə Azərbaycan postsovet dövlətləri məkanında Gürcüstan (55), Qazaxıstan (78), Ermənistan (83), Özbəkistan (85), Moldova (88), Tacikistan (116), Belarus (119), Qırğızıstan (120), Ukrayna (123) və Rusiyanı (131) qabaqlayır.

“İnstitutlar” blokunun Biznes mühiti bölməsi üzrə 2023-cü illə müqayisədə 2 pillə yaxşılaşaraq çox yüksək 15-ci yeri, biznesin aparılması üçün şərait göstəricisi üzrə isə 19-cu yeri tutaraq ötən illə müqayisədə reytinqdə öz mövqeyini 3 pillə yaxşılaşdırmışdır. Azərbaycan bu göstərici ilə Özbəkistanı (20), Gürcüstanı (21), Estoniyanı (46), Tacikistanı (49), Litvanı (54), Ukraynanı (72), Ermənistanı (76), Qazaxıstanı (92), Rusiyanı (94), Qırğızıstanı (100), Moldovanı (108), Latviyanı (118) qabaqlayır.

İnsan kapitalı və elm blokunda Orta məktəbdə şagird-müəllim nisbəti göstəricisi yüksək olmaqla 20-ci yerdədir. Bu göstərici ilə Azərbaycan postsovet məkanında Estoniya (21), Latviya (26), Belarus (30), Moldova (39), Ermənistan (47), Qırğızıstan (59) və Özbəkistanı (62) qabaqlayır. Ali təhsil bölməsində Elm və texnologiya üzrə məzunlar göstəricisi üzrə 45-ci yerdədir və 2023-cü illə müqayisədə 2 pillə yaxşılaşmışdır. Azərbaycan bu göstərici ilə postsovet məkanında Qazaxıstan (51), Moldova (57), Tacikistan (65), Gürcüstan (79), Latviya (82), Qırğızıstan (85), Ermənistanı (89) qabaqlayır.

Biznesin inkişafı bloku aşağıdakı postsovet məkanı ölkələrini qabaqlayaraq, reytinqdə 67-ci yeri tutub: Özbəkistan (71), Belarus (81), Ermənistan (85), Tacikistan (101), Moldova (105), Qırğızıstan (117). Azərbaycanın 39-cu yeri tutduğu və 2023-cü illə müqayisədə mövqeyini 9 pillə yaxşılaşdırdığı İnnovativ Əlaqələr bölməsində Patent ailələri göstəricisi yaxşılaşıb (91-ci yer, 2023-cü illə müqayisədə 4 pillə yaxşılaşıb). Universitet-sənaye tədqiqat əməkdaşlığı üzrə 30-cu yerdə qərarlaşaraq Cənubi Qafqaz regionu üzrə liderdir (Gürcüstan - 41 və Ermənistan-104). Klasterin İnkişafı vəziyyəti isə 29-cu yerdədir. Bu göstərici ilə postsovet məkanında Azərbaycan Özbəkistanı (30), Gürcüstanı (34), Litvanı (55), Estoniyanı (59), Rusiyanı (64), Ukraynanı (71), Latviyanı (91), Ermənistanı (101), Qırğızıstanı (110), Qazaxıstanı (114), Tacikistanı (122), Moldovanı (123) qabaqlayır.

Azərbaycan elm və sənaye arasında birgə nəşrlər göstəricisi üzrə 46-cı yerdə yüksək yer tutaraq Cənubi Qafqaz dövlətləri arasında Ermənistanı (63) və Gürcüstanı (90) qabaqlayır. Biliklərin mənimsənilməsi bölməsində Əqli Mülkiyyət üzrə ödənişlər göstəricisi 68-ci yeri tutub.

“İnnovasiya nəticələri” alt indeksi mühüm nəticəvi indeksdir. Əgər “İnnovasiya resursları” alt indeksi innovasiya üçün əlverişlilik səviyyəsini əks etdirirsə, “İnnovasiya nəticələri” alt indeksi bu sahədə nailiyyətləri əks etdirir. Bu alt indeks nə qədər yüksək olarsa, bir o qədər innovativ imkanlardan tam və səmərəli istifadə olunur.

**2018-2024-cü illər üzrə QİI alt indeks göstəriciləri**




Biliklərin yaradılması istiqamətində Bilik və texnologiyaların yayılması blokunda yüksək yerləri əqli mülkiyyətin göstəriciləri tutur, məsələn, Patentlər (50-ci yer, 2023-cü illə müqayisədə 13 pillə yaxşılaşmışdır). Patent göstəricisi (50) innovasiyanın ən mühüm amili olmaqla və QİI-nin tərtibatçı-ekspertlərinin qeyd etdiyi kimi, Azərbaycanın güclü tərəfləri kimi çıxış edir və reytinqdə Cənubi Qafqazın bütün ölkələrini qabaqlayır.

PCT Patentləri üzrə 72-ci (2023-cü illə müqayisədə 15 pillə yaxşılaşmışdır), faydalı modellər üzrə 49-cu yerdəyik.

Biliklərin təsiri bölməsində ölkəmiz üzrə nəzərəçarpan irəliləyiş əmək məhsuldarlığının artımı göstəricisində baş verib - 28-ci yer və ötən illə müqayisədə 34 pillə irəliləyib. Bu göstərici yekun göstəricidir və qabaqcıl texnologiyaların istehsalata tətbiqindən, əqli əməyin nəticələrindən, işçilərin ixtisasının artırılmasından asılıdır. Bu göstəriciyə görə Qazaxıstan (30), Latviya (32), Litva (46), Belarus (52), Rusiya (64), Moldova (72), Qırğızıstan (84), Estoniya (90) və Ukraynanın (130) göstəricilərini qabaqlayırıq.

Yaradıcı fəaliyyətin nəticələri blokunda qeyri-maddi aktivlər istiqamətində, əqli mülkiyyətə aid olan iki göstərici yaxşılaşıb: əmtəə nişanları üzrə göstəriciyə görə ölkəmiz 2023-cü illə müqayisədə 17 pillə irəliləyərək 49-cu yerdə qərarlaşıb. Qeyd edək ki, əmtəə nişanları göstəricisi üzrə Azərbaycan MDB çərçivəsində Litvanı (52), Gürcüstanı (55), Özbəkistanı (57), Qazaxıstanı (75), Qırğızıstanı (94), Belarusu (95), Tacikistanı (103) qabaqlayır; sənaye nümunələri göstəricisi üzrə 2023-cü illə müqayisədə 7 pillə yaxşılaşaraq 81-ci yerdəyik.

Qeyd edək ki, Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın nəzdində yaradılmış Agentliyin rəhbərlik etdiyi "Əqli mülkiyyət məsələləri üzrə Xüsusi İşçi Qrupu" beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılmasına və əqli mülkiyyətlə əlaqəli sahələr barədə məlumatlılığın artırılmasına dəstək göstərmiş, digər işçi qrupları arasında bu sahədə koordinasiyanı təşkil etmişdir.

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Global İnnovation İndex**<br>***- rank***<br>***- value*** | <br>**93**<br>**30,1** | <br>**85**<br>**29,6** | <br>**82**<br>**30,6** | <br>**82**<br>**30,20** | <br>**84**<br>**30,21** | <br>**82**<br>**27,2** | <br>**80**<br>**28,4** | <br>**93**<br>**21,5** | <br>**89**<br>**23,3** | <br>**95**<br>**21,3** |
| **5.2.5. Patent ailələri**<br>***- rank***<br>***- value*** | <br>91<br>0,0 | <br>78<br>0,0 | <br>74<br>0,1 | <br>76<br>0,0 | <br>79<br>0,0 | <br>93<br>0,0 | <br>81<br>0,0 | <br>66<br>0,1 | <br>95<br>0,0 | <br>91<br>0,01 |
| **6.1.1. Rezidentlərin patent müraciətləri**<br>***- rank***<br>***- value*** | 61<br>1,0 | 60<br>1,2 | 59<br>1,3 | 60<br>1,1 | 60<br>1,1 | 64<br>1,0 | 56<br>1,3 | 71<br>0,7 | 63<br>0,9 | 50<br>1,2 |
| **6.1.2. Rezidentlərin PCT patent müraciətləri**<br>***- rank***<br>***- value*** | 99<br>0,0 | 94<br>0,0 | 99<br>0,0 | 72<br>0,1 | 67<br>0,1 | 74<br>0,1 | 76<br>0,0 | 91<br>0,0 | 87<br>0,0 | 72<br>0,06 |
| **6.1.3. Rezidentlərin faydalı model müraciətləri**<br>***- rank***<br>***- value*** | 57<br>0,1 | 46<br>0,1 | 46<br>0,1 | 53<br>0,1 | 53<br>0,1 | 50<br>0,2 | 39<br>0,4 | 49<br>0,2 | 49<br>0,2 | 49<br>0,1 |
| **7.1.2. Rezidentlərin əmtəə nişanlarının müraciətləri**<br>***- rank***<br>***- value*** | 77<br>22,4 | 76<br>22,2 | 91<br>16,5 | 91<br>17,0 | 91<br>16,7 | 91<br>21,2 | 80<br>26,0 | 80<br>27,1 | 66<br>35,2 | 49<br>39,9 |
| **7.1.4. Rezidentlərin sənaye nümunələrin müraciətləri**<br>***- rank***<br>***- value*** | 49<br>0,2 | 87<br>0,3 | 107<br>0,1 | 110<br>0,1 | 110<br>0,1 | 92<br>0,3 | 74<br>0,9 | 103<br>0,2 | 88<br>0,4 | 81<br>0,4 |

**8. "İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında"** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 iyun tarixli 1716 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarı ilə "İxtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və onların ilk 3 il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizinin dövlət tərəfindən maliyyələşdirilməsi Qaydası"na uyğun olaraq PCT beynəlxalq sistemi vasitəsilə bir faydalı modelin patentləşdirilməsinə və ilk üç il müddətində qüvvədə saxlanılmasına görə, habelə bir ixtiraya dair iddia sənədi milli faza mərhələsinə keçənədək hüquq sahibləri tərəfindən ödənilmiş vəsaitlərin 50 (əlli) faizi 2024-cü ildə dövlət büdcəsindən Agentliyə bu məqsəd üçün ayrılmış vəsait hesabına maliyyələşdirilmişdir. Hesabat ilində "Динамический бортовой способ и система (устройство) автоматического измерения массы и центровки, углов тангажа, рыскания, крена и смещения центровки летательного аппарат на земле и в полете" (PCT/AZ2022/000006) adlı faydalı modelin hüquq sahibi Toğrul İsa oğlu Kərimli tərəfindən həmin faydalı modelin PCT beynəlxalq sistemi vasitəsilə Almaniya Federativ

Respublikasının Patent İdarəsində patentləşdirilməsi və patentin ilk üç il müddətində qüvvədə saxlanılması üçün 2022-2023-cü illər ərzində ödədiyi 8500 RUB, 40 € və 143.7 USD vəsaitin ödənildiyi gün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş məzənnəyə uyğun olaraq Azərbaycan manatı ilə və iddia sənədinin PCT beynəlxalq sistemi vasitəsilə qeydiyyatı üçün qəbulu, hazırlanması və göndərilməsinə görə ödənilmiş 30 manat, iddiaçının xahişi ilə bir ədəd milli iddia sənədinin və ya onun barəsində məlumatların (Patent Kooperasiyası haqqında müqavilənin təlimatının 17.1(v) qaydası, ilkin sənəd) təsdiqlənmiş surətinin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Beynəlxalq Bürosuna göndərilməsi üçün ödənilmiş 10 manat daxil olmaqla 514.52 (beş yüz on dörd manat, 52 qəpik) məbləğində vəsaitin 50 (əlli) faizi, yəni 257.26 manat (iki yüz əlli yeddi manat 26 qəpik) 2024-cü ildə dövlət büdcəsindən Agentliyə bu məqsəd üçün ayrılmış vəsait hesabına maliyyələşdirilmişdir. Keçən il həmçinin “Ветровая энергетическая система” (PCT/AZ2022/000010) adlı ixtiranın hüquq sahibi Vüsal Faiq oğlu Civişov tərəfindən həmin ixtiranın Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə patentləşdirilməsi üçün 2022-ci ildə ödədiyi *(2022-ci il 21 iyul tarixli beynəlxalq faza iddia sənədinin verilməsi üçün 30 AZN, beynəlxalq faza iddia sənədinin ÜƏMT-nin Beynəlxalq Bürosuna göndərilməsi üçün 10 AZN, beynəlxalq iddia sənədinin verilməsi üçün 143,7 USD və axtarışın aparılması üçün 8500 RUB)* 545,24 (beş yüz qırx beş) manat vəsaitin 50 (əlli) faizinin də, yəni 272.62 (iki yüz yetmiş iki manat 62 qəpik) manatın 2024-cü ildə dövlət büdcəsindən Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə bu məqsəd üçün ayrılmış vəsait hesabına maliyyələşdirilməsi barədə İdarə Heyəti tərəfindən müvafiq qərar qəbul edilmişdir.

Avrasiya Patent Təşkilatı (APT) tərəfindən patent verilmiş qüvvədə olan prioritet ixtiraların kommersiyalaşdırılması və tətbiq olunması məqsədilə patentlərin sayı çoxluq təşkil edən Elm və Təhsil Nazirliyi və Dövlət Neft Şirkəti üzrə Agentlik tərəfindən təhlillər aparılmışdır. Təhlillərin nəticəsi olaraq Elm və Təhsil Nazirliyinə aid qüvvədə olan 114, Dövlət Neft Şirkətinə aid qüvvədə olan 26 ixtira patentləri seçilmişdir. Həmin patentlərin təfərrüatlı izahlı-arayışı hazırlanaraq həmin qurumlara göndərilmiş, onların istehsalatda tətbiqi və kommersiyalaşdırılmasına yardım göstərilməsi təklif edilmişdir.

**9. Patent məlumatlarının beynəlxalq göstəriciləri əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat istiqamətlərinin müəyyən edilməsi və texnologiya inkişaf səviyyəsinin qiymətləndirilməsi**

Ölkənin elmi-texnoloji prioritetlərinin seçimi, texnoloji inkişafının drayverlərinin müəyyənləşdirilməsi, mövcud milli, elmi-texnoloji potensialı və ölkə rəqabətqabiliyyətliliyi patent statistikası və patent portfelinin strukturu və istiqamətləri vasitəsilə əsaslandırıla bilər.

Bu növ araşdırmalar ilk növbədə ölkənin texnoloji profilinin müəyyən edilməsindən başlanır (araşdırma ixtiralara aid patentlər əsasında aparılır).

2024-cü ildə Agentliyə ixtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı ilə bağlı 310, o cümlədən ixtiraya dair 204, faydalı modelə dair 69, sənaye nümunəsinə dair 37 iddia sənədi, coğrafi göstəriciyə dair 2, əmtəə nişanlarına dair 3880 iddia sənədi daxil olmuşdur. Beynəlxalq əmtəə nişanları üzrə 3394 iddia sənədi daxil olmuşdur.

PCT proseduru üzrə Beynəlxalq Büroya göndərilmək üçün ixtiraya dair 7 iddia sənədi, Avrasiya Patent Təşkilatına (APT) göndərilmək üçün ixtiraya dair 39 iddia sənədi daxil olmuşdur. Haaqa proseduru üzrə beynəlxalq sənaye nümunələrinə dair 165 iddia sənədinə dair axtarış aparılmış və nəticəsi müsbət olan 165 iddia sənədi barədə məlumat Agentliyin “Sənaye mülkiyyəti” bülletenində dərc edilmişdir. 2024-cü ildə sənaye mülkiyyəti obyektləri üzrə Dövlət reyestrində ixtiralara dair 128, faydalı modellərə dair 43, sənaye nümunələrinə dair isə 14 patent verilmişdir.

Əqli Mülkiyyət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş 3.2.1. Fəaliyyət istiqaməti: "İnnovasiya ekosisteminin inkişafı" Tədbir və layihələrin 6-cı "Patent məlumatlarının beynəlxalq göstəriciləri əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat istiqamətlərinin müəyyən edilməsi və texnologiya inkişaf səviyyəsinin qiymətləndirilməsi" bəndini əsas tutaraq qüvvədə olan ixtira patentlərinin SWOT analizini aparır və mütəmadi olaraq beynəlxalq təsnifatlara uyğun Azərbaycan üzrə patent landşaftı tərtib edir. Belə ki, 2024-cü il analiz yekunlarına əsasən ölkədə qüvvədə olan ixtira patentlərinin ən çoxu Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) "Beynəlxalq Patent Təsnifatı"nın "Kimya və metallurgiya" bölməsinə - 159 və ya 42,8%, "Tikinti və dağ-mədən işi" bölməsinə 58 və ya 15,6%, "İnsanın həyati tələbatlarının təmin edilməsi" bölməsinə - 55 və ya 14,8%, "Fizika" bölməsinə - 34 və ya 9.2% **(cədvəl 1).**

***Cədvəl 1***

**2024-cü ildə Azərbaycanda rezidentlərin qüvvədə olan ixtira patentlərinin "Beynəlxalq Patent Təsnifatı" bölmələri, sinifləri üzrə paylanması**

| Bölmə | Siniflər | İxtiraların sayı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Milli ofis | Avrasiya Patent Təşkilatı |
| A. İnsanın həyati tələbat-larının təmin edilməsi | Kənd təsərrüfatı | 16 | 13 | 3 |
| | Qida məhsulları; tütün | 1 | 1 | - |
| | Şəxsi və ev əşyaları | - | - | - |
| | Səhiyyə; xilasetmə xidməti; əyləncə | 38 | 19 | 19 |
| B. Müxtəlif tex-noloji proseslər, nəqletmə | Ayırma; qarışdırma | 10 | 8 | 2 |
| | Formalaşma (təşəkkül) | 4 | 3 | 1 |
| | Poliqrafiya | 1 | 1 | - |
| | Nəqletmə | 5 | 2 | 3 |
| | Mikrostruktur texnologiyaları; nano-texnologiyalar | 6 | 5 | 1 |
| C. Kimya və metallurgiya | Kimya | 147 | 125 | 22 |
| | Metallurgiya | 12 | 9 | 3 |
| | Kombinasiya edilmiş texnologiya | - | - | - |
| D. Toxuculuq və kağız | Digər siniflərə aid olmayan toxuculuq və ya oxşar elastik materiallar | 3 | 3 | - |
| | Kağız | - | - | - |
| E. Tikinti və dağ-mədən işi | Tikinti | 8 | 1 | 7 |
| | Torpaq və ya dağ suxurların qazıntısı; mədən işi | 50 | 21 | 29 |
| F. Maşınqayır-ma; işıqlandırma; isitmə; silah və döyüş sursatı; partlatma işləri | Mühərrik və ya nasoslar | 11 | 9 | 2 |
| | Ümumi maşınqayırma | 5 | 3 | 2 |
| | İşıqlandırma; istitmə | 6 | 3 | 3 |
| | Silah və döyüş sursatı; partlatma işləri | 1 | 1 | - |

| | | | | |
|---|---|---|---|---|
| G. Fizika | Cihazlar | 31 | 22 | 9 |
| | Nüvə fizikası və texnikası, və əlaqəli elm sahələri | 3 | 3 | - |
| H. Elektrik | Elektrik | 13 | 13 | - |
| Yekun | ¤ | 371 | 265 | 106 |

**10. Ümumi Daxili Məhsulda (ÜDM) kreativ sənayenin payı.** 2003-cü ildən başlayaraq Agentlik (o vaxt Müəllif Hüquqları Agentliyi) tərəfindən Azərbaycanın Ümumi Daxili Məhsulunda (ÜDM-də) müəlliflik hüququ və əlaqəli hüuquqlara əsaslanan sənayenin (kreativ industriyanın) payı araşdırılır, nəticələr təhlil olunur və müvafiq hökumət strukturlarına çatdırılır. Bu iş 2024-cü ildə də davam etdirilmişdir.

Kreativ industriyanın ÜDM-dəki payı müəllif-hüquq sisteminin mühüm inteqrativ (cəm) göstəricisidir. Bu sahədə araşdırmalar ölkənin milli iqtisadiyyatının strukturu və statistikası nəzərə alınmaqla Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) müvafiq Metodiki Tövsiyələrinə (“Guide on surveying the economic contribution of the copyright - based industries”) əsaslanır. Hesablamalar üçün rəsmi statistika materiallarından, dövlət büdcəsinin hesabat göstəricilərindən və ekspert qiymətləndirmələrindən istifadə olunur. Metodiki tövsiyələrin məqsədi müəlliflik və əlaqəli hüquqlara əsaslanan sənayenin sahələri, istehsalları və digər bölmələrinin ölkənin iqtisadiyyatına verdiyi payının müəyyənləşdirilməsi ilə bağlıdır.

Hesabat dövründə müəllif hüququna əsaslanan (kreativ sənaye) 2024-cü ilin 1 yanvar tarixinə olan vəziyyətə görə milli iqtisadiyyat sahələri üzrə faktiki statistik göstəricilər və dövlət büdcəsi rəqəmləri toplanmış və təhlil edilmişdir. Müəllif hüququna əsaslanan milli iqtisadiyyat sahələrində istehsalın həcmi müəyyən edildikdən sonra, bu sahələrin ölkə üzrə ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisi hesablanmışdır. 2023-cü ildə Azərbaycanda müəlliflik hüququna əsaslanan sahələrdə istehsalın həcmi 6619,8 mln. manat təşkil etmişdir.

Əqli Mülkiyyət Agentliyində aparılan təhlil və hesablamalar göstərir ki, Azərbaycanın ÜDM-də kreativ sənayenin payı getdikcə artmaqdadır. Son illərdə ölkənin ÜDM-də kreativ sənayenin payı 2010-cu ildə **3,5%-dən** 2024-ci ilin 1 yanvarına olan vəziyyətə görə **5,2%-ə** çatmış və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir.

**Kreativ sənayenin ölkə ÜDM-da payı** (%)



Qeyd olunmuş metodiki tövsiyələrə müvafiq olaraq müəllif hüququna əsaslanan kreativ sənayenin sahələri dörd qrupda cəmləşir: əsas müəllif hüququ sahələr; qarşılıqlı asılılıq münasibətlərində olan sahələr; müəllif hüququna qismən əsaslanan sahələr; köməkçi sahələr.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatın Metodiki tövsiyələr əsasında tərtib edilmiş diaqramda kreativ industriya sahələrinin əsas qrupları üzrə göstəricilər verilib **(2024-cü il 1 yanvar tarixinə - %-lə):**




Tövsiyələrə uyğun olaraq kreativ sənayedə ən böyük pay əsas müəlliflik hüququna əsaslanan sahələrə düşür - 54,5%. Müəlliflik hüququ sahələri sektorunda ən böyük pay isə “elm, ali təhsil, proqram təminatı və verilənlər bazaları”na aiddir - 64,8%, daha sonra “mətbuat və ədəbiyyat” sahəsi gəlir: 17,2%.

**Əsas müəllif hüququna əsaslanan kreativ industriyanın strukturu (2024-cü il 1 yanvar tarixinə - %-lə)**



Hesabat dövründə şöbə İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Mədəniyyət Nazirliyində yaradılmış İşçi qruplarının iclaslarında iştirak etmiş və şöbəyə daxil olmuş məktubları cavablandırmışdır.

**Kommersiyalaşma potensialı olan əqli mülkiyyət obyektlərinin vahid bazası yenilənmiş, elm və sənaye arasında bağlantının təmin olunması istiqamətində işlər gücləndirilmişdir.** Hesabat ilində 9 universitetdə görüş keçirilmiş, texnoloji innovasiyalar sahəsində elmi tədqiqatların və startap layihələrinin dəstəklənməsi, universitetlərin elmi tədqiqat nəticələrinin kommersiyalaşdırılması və transferi ilə bağlı müzakirələr aparılmış, qarşılıqlı informasiya dəstəyi göstərilməsi barədə razılıq əldə edilmişdir.

**11. Sənaye mülkiyyəti sahəsində dövlət xidmətləri.** 2024-cü ildə ixtira, faydalı model və sənaye nümunəsinin patentləşdirilməsinə dair Agentliyə **310** iddia sənədi (2023-cü ildə **302** iddia sənədi), o cümlədən ixtiraya aid **204** (2023-cü ildə **201)**, faydalı modelə aid **69** (2023-cü ildə **67)**, sənaye nümunəsinə aid **37** (2023-cü ildə **34**) və Avrasiya patentinin alınması üçün **39** (2023-cü ildə **35**) iddia sənədi daxil olmuşdur. Patentlərin alınması ilə bağlı daxil olmuş iddia sənədlərinin sayı (ixtira fəallığı) **2023-cü illə müqayisədə 2024-cü ildə 4%-ə yaxın** artmışdır. Həyata keçirilən islahatlar nəticəsində ölkəmiz patent sifarişləri üzrə, yəni ixtira fəallığına görə Cənubi Qafqazda liderdir (Cədvəl 2 və 3-də illər üzrə ixtira fəallığına dair məlumatlar verilmişdir).

*Cədvəl 2*

**İxtira, faydalı model və sənaye nümunələrinə patent alınması üçün 2023-2024-cü illərdə daxil olan iddia sənədlərinin sayı (ixtira fəallığı)**



*Cədvəl 3*

**2022-2023-2024-cü illərdə ixtira fəallığı**

*(İxtira, faydalı model və sənaye nümunələrinə patent alınması üçün iddia sənədlərinin sayı)*




Avrasiya Patent İdarəsinə göndərilməsi üçün **39** (2023-cü ildə **35**) və PCT beynəlxalq sistemi vasitəsilə patent alınması məqsədilə Beynəlxalq Büroya göndərilməsi üçün ixtiraya aid **7** (2023-cü ildə **6**) iddia sənədi daxil olmuşdur (ümumilikdə 2023-cü illə müqayisədə **12%** çox).

2024-cü ildə Dövlət reyestrində **185** patent (2023-cü ildə **151** patent), o cümlədən ixtiralara dair **128** (2023-cü ildə **103**), faydalı modelə aid **43** (2023-cü ildə **36**) və sənaye nümunələrinə aid **14** (2023-cü ildə **12**) qeydiyyata alınıb.

Hesabat ilində qeydiyyata alınmış ixtira patentlərinin **97-i** milli, **31-i** isə xarici hüquqi (**2023-cü ildə** milli hüquq sahiblərinin sayı **87** və xarici hüquq sahiblərinin sayı **16** olmuşdur) şəxslərə aid olmuşdur.

Patent fəallığı 2023-cü illə müqayisədə **22%** artmışdır **(cədvəl 4):**

*Cədvəl 4*

**2023-2024-cü illərdə patent fəallığı**

*(İxtira, faydalı model və sənaye nümunələrinə verilən patentlərin sayı)*



Əmtəə nişanlarının qeydiyyatı ilə bağlı daxil olan iddia sənədlərinin sayı **3880** (2023-cü ildə 3862) olmuşdur **(cədvəl 5):**

*Cədvəl 5*

**Əmtəə nişanlarının qeydiyyatı ilə bağlı iddia sənədlərinin sayı (2023-2024-cü illər üzrə)**




Sənaye mülkiyyəti obyektlərinə (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici) dair iddia sənədlərinin ekspertizasının müddəti orta hesabla **30-50%** qısaldılmışdır.

2024-cü ildə müvafiq dövlət reyestrində **2844** əmtəə nişanı qeydiyyata alınmışdır.

**İxtiralar**




Cədvəllərdə və diaqramda 2024-cü ildə ixtiraya dair qeydiyyatdan keçmiş patentləri, onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə və ixtiraların sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.

| BPT-nin bölməsi | | İxtiralara dair patentlərin sayı | |
|---|---|---|---|
| | | 2024 | |
| | | milli | xarici |
| A | İnsanın həyati tələbatlarının təmin edilməsi | 11 | 1 |
| B | Müxtəlif texnoloji proseslər; nəqletmə | 1 | 7 |
| C | Kimya; metallurgiya | 64 | 4 |
| D | Toxuculuq; kağız | 1 | - |
| E | Tikinti və dağ-mədən işləri | 4 | 10 |
| F | Maşınqayırma, işıqlanma, isitmə, silah və sursat, partlama işləri | 6 | 3 |
| G | Fizika | 8 | 6 |
| H | Elektrik | 2 | - |
| **Cəmi** | | **97** | **31** |

| Ölkələr | Ölkənin kodu | İxtiralara dair patentlərin sayı |
|---|---|---|
| | | 2024 |
| Azərbaycan Respublikası | AZ | 98 |
| Türkiyə | TR | 6 |
| ABŞ | US | 12 |
| İsveşrə | CH | 1 |
| Norveç | NO | 2 |
| Polşa | PL | 1 |
| Fransa | FR | 1 |
| Böyük Britaniya | GB | 1 |
| Niderland | NL | 3 |
| İspaniya | ES | 1 |
| Rusiya Federasiyası | RU | 1 |
| Almaniya | DE | 1 |
| Cəmi | | 128 |




## Faydalı modellər

Faydalı modellərə dair 2024-cü il ərzində **43** ədəd patent qeydiyyata alınıb. Onlardan **38** ədədi milli, **5** ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. **2023-cü ildə** faydalı modellərə dair **36** (onlardan **30** milli, **6** xarici) patent verilmişdir.

Cədvəl və diaqramda 2024-cü ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentlər və onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə paylanması göstərilmişdir.




| BPT | Faydalı modellərə dair patentlərin sayı | |
|---|---|---|
| | 2024 | |
| | milli | xarici |
| A | **7** | **1** |
| B | **4** | **3** |
| E | **5** | **-** |
| F | **12** | **-** |
| H | **4** | **1** |
| G | **6** | **-** |
| **Cəmi** | **38** | **5** |

**<u>Sənaye nümunələri</u>**

Sənaye nümunələrinə dair 2024-cü il ərzində **14** ədəd patent qeydiyyata alınıb, onlardan **10** ədədi milli, **4** ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. **2023-cü ildə** sənaye nümunələrinə dair **12** (onlardan **6** milli, **6** xarici) patent verilmişdir.

Cədvəllərdə və diaqramda 2024-cü ildə sənaye nümunəsinə dair qeydiyyatdan keçmiş patentlər və onların Sənaye nümunələrinin beynəlxalq təsnifatının sinifləri üzrə və sənaye nümunələrin sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.

| SNBT | | Sənaye nümunələrinə dair patentlərin sayı |
|---|---|---|
| | | 2024 |
| 02 | **Geyim, qalateriya** | **1** |
| 06 | **Mebel** | **1** |
| 09 | **Malların daşınması və ya saxlanması üçün istifadə olunan tara, qablaşdırma və qablar** | **8** |
| 11 | **Bəzək əşyaları** | **2** |
| 12 | **Nəqliyyat vasitələri və qaldırıcı qurğular** | **1** |
| 21 | **Oyunlar, oyuncaqlar, çadırlar və idman malları** | **1** |
| **Cəmi** | | **14** |



| Ölkələr | Ölkənin kodu | Sənaye nümunələrinə dair patentlərin sayı |
|---|---|---|
| | | 2024 |
| **Azərbaycan Respublikası** | **AZ** | **10** |
| **İtaliya** | **IT** | **2** |
| **İsveçrə** | **CH** | **1** |
| **Birləşmiş Krallıq** | **UK** | **1** |
| Cəmi | | 14 |




**Patent məlumatlarının beynəlxalq göstəriciləri əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat istiqamətlərinin müəyyən edilməsi. Texnologiya inkişaf səviyyəsinin qiymətləndirilməsi.** Ölkənin elmi-texnoloji prioritetlərinin seçimi, texnoloji inkişafının drayverlərinin müəyyənləşdirilməsi, mövcud elmi-texnoloji potensialı və rəqabətqabiliyyətliliyi patent statistikası və patent portfelinin strukturu və istiqamətləri ilə əsaslandırıla bilər.

Bu növ araşdırmalar və təhlillər ixtiralara aid patentlər əsasında aparılır. Təhlilin yekunlarına əsasən ölkədə qüvvədə olan ixtira patentləri əsasən “Beynəlxalq Patent Təsnifatı”nın “Kimya və metallurgiya” bölməsinə - **122 və ya 37%**, “Tikinti və dağ-mədən işi” bölməsinə - **61 və ya 18%**, “İnsanın həyati tələbatlarının təmin edilməsi” bölməsinə - **55 və ya 17%**, “Fizika” bölməsinə - **25 və ya 7.5%** aiddir.

**<u>Əmtəə nişanları</u>**

2024-cü il ərzində müvafiq Dövlət reyestrində **2844** ədəd **əmtəə nişanı** qeydiyyata alınmışdır, onlardan **2096** ədədi milli, **748** ədədi isə xarici fiziki və hüquqi şəxslərə məxsus olmuşdur. 2023-cü ildə müvafiq Dövlət Reyestrində qeydiyyata alınmış **3145** əmtəə nişanından **2541** ədədi milli, **604** ədədi isə xarici fiziki və hüquqi şəxslərə məxsus olmuşdu.



2024-cü ildə əmtəə nişanlara dair qeydiyyatdan keçmiş əmtəə nişanlarının sahiblərinin mənsub olduğu ölkələr üzrə məlumatlar cədvəl və diaqramda göstərilmişdir.

| Sıra №-si | Ölkələr | Ölkənin kodu | Qeydiyyata alınmış əmtəə nişanlarının sayı |
|---|---|---|---|
| | | | 2024 |
| 1. | Azərbaycan Respublikası | AZ | 2096 |
| 2. | Birləşmiş Ərəb Əmirlikləri | AE | 31 |
| 3. | Bosniya və Herseqovina | BA | 1 |
| 4. | İsveçrə Konfederasiyası | CH | 34 |
| 5. | Çin Xalq Respublikası | CN | 120 |
| 6. | İndoneziya | İD | 1 |
| 7. | Almaniya Federativ Respublikası | DE | 13 |
| 8. | Danimarka Krallığı | DK | 16 |
| 9. | Finlandiya | FI | 2 |
| 10. | Fransa | FR | 2 |
| 11. | Böyük Britaniya | GB | 36 |
| 12. | Gürcüstan | GE | 5 |
| 13. | Jersey | JE | 1 |
| 14. | Kipr | CY | 6 |
| 15. | İrlandiya | IE | 11 |
| 16. | Hindistan | IN | 6 |
| 17. | İran | IR | 9 |
| 18. | İtaliya | IT | 3 |
| 19. | İraq | IQ | 2 |
| 20. | İordaniya | JO | 2 |
| 21. | Yaponiya | JP | 28 |
| 22. | Koreya Respublikası | KR | 63 |
| 23. | Qazaxıstan | KZ | 3 |
| 25. | Kayman Adaları | KY | 4 |
| 26. | Küveyt | KW | 2 |
| 27. | Monqolustan | MN | 4 |
| 28. | Makedoniya | MK | 1 |
| 29. | Niderland | NL | 7 |
| 30. | Polşa | PL | 3 |
| 31. | Rusiya Federasiyası | RU | 58 |
| 32. | Səudiyyə Ərəbistanı | SA | 7 |
| 33. | İsveç | SE | 3 |
| 34. | Sinqapur | SG | 5 |
| 35. | Guernsey | GG | 1 |
| 36. | Honq-Konq | HK | 3 |
| 37. | Türkiyə | TR | 80 |
| 38. | Tayvan | TW | 2 |
| 39. | Ukrayna | UA | 5 |
| 40. | ABŞ | US | 100 |
| 41. | Virgin Adaları | VG | 6 |
| 42. | Özbəkistan | UZ | 1 |
| 43. | Avstriya | AT | 1 |
| 44. | Portuqaliya | PT | 3 |
| 45. | Pakistan | PK | 2 |
| 46. | Qatar | QA | 3 |

| | | | |
|---|---|---|---|
| 47. | Birləşmiş Krallıq | UK | 7 |
| 48. | Malaziya | MY | 10 |
| 49. | Macarıstan | HU | 23 |
| 50. | Şri-Lanka | LK | 2 |
| 51. | Avstraliya | AU | 1 |
| 52. | Mavriki | MU | 1 |
| 53. | İspaniya | ES | 2 |
| 54. | Çexiya Respublikası | CZ | 2 |
| 56. | Latviya | LV | 4 |
| | Cəmi | | 2844 |




**<u>Coğrafi göstəricilər</u>**

2024-cü il ərzində coğrafi göstəricilərin Dövlət reyestrində milli hüquqi şəxslərə məxsus **1** ədəd coğrafi göstəricisi qeydiyyata alınmışdır.

Əmtəə nişanlarının beynəlxalq mühafizəsinə dair Madrid Sazişi və ona dair Protokol üzrə milli əmtəə nişanlarının beynəlxalq qeydiyyatı ilə bağlı Beynəlxalq Büroya göndərilmiş müraciətlərə dair məlumatlar aşağıdakı cədvəldə verilir **(cədvəl 6)**:

*Cədvəl 6*

**Milli əmtəə nişanlarının beynəlxalq qeydiyyatı üçün müraciətlərin sayı (2023-2024-cü illər üzrə)**




Hesabat dövründə **355** patentin və əmtəə nişanlarının qeydiyyatı haqqında **1224** şəhadətnamənin qüvvədə olma müddəti uzadılmış, sənaye mülkiyyəti obyektlərindən istifadəyə dair hüquqların verilməsi barədə **154** müqavilə (2023-cü ildə **129**) qeydiyyata alınmışdır.

**<u>Sənaye mülkiyyəti obyektləri üzrə reyestrlərdə dəyişikliklər, verilmiş dublikatlar və çıxarışlar</u>**

Hesabat dövründə patentlərin qüvvədə olma müddətinin uzadılması barədə **355** ədəd (2023-cü ildə **414** ədəd), şəhadətnamələrin qüvvədə olma müddətinin uzadılması barədə **1224** ədəd (2023-cü ildə **769** ədəd), əmtəə nişanlarına dair - **693** ədəd (2023-cü ildə **1548** ədəd) və patentlərə dair - **2** ədəd (2023-cü ildə **2** ədəd) dəyişikliklər edilməsi haqqında bildiriş qeydiyyata alınmışdır, **36** ədəd (2023-cü ildə **34** ədəd) dublikat, **126** ədəd (2023-cü ildə **85** ədəd) çıxarış verilmişdir.

**<u>Sənaye mülkiyyəti obyektləri üzrə müqavilələrin qeydiyyatı</u>**

Sənaye mülkiyyəti obyektləri üzrə **154** (2023-cü ildə **129**) müqavilə qeydiyyata alınmışdır. Onlardan:

- **135-i** (2023-cü ildə **105-i**) əmtəə nişanları üzrə hüquqların verilməsi (**290** əmtəə nişanına (2023-cü ildə **413**));
- **3-ü** vərəsəlik üzrə hüquqların verilməsi (2023-cü ildə **2**);
- **1-i** iddia sənədi üzrə hüquqların verilməsi;
- **1-i** isə faydalı model üzrə hüquqların verilməsi,
- **13-ü** (2023-cü ildə **20-i**) əmtəə nişanları üzrə istifadə hüququna dair lisenziya verilməsi (**55** əmtəə nişanına dair (2023-cü ildə **62**);
- **1-**i (2023-cü ildə **2-i**) ixtira üzrə istifadə hüququna dair lisenziya verilməsi olmuşdur.

**12. Müəllif hüquqları sahəsində dövlət xidmətlərinin illik yekunlarına dair.** 2024-cü ildə **346** müəllifin (hüquq sahibinin) **660** əsəri, o cümlədən **306** müəllifə məxsus **543** əsər elektron qaydada qeydiyyatdan keçirilmişdir.

Qeydiyyatdan keçirilmiş əsərlərin 138-i musiqili əsərdir, bu da 2023-ci illə müqayisədə **56%** çoxdur. Qeydiyyta alınmış audiovuzual əsərlərin sayı **96** (2023-ci ildə 4 audiovuzual əsər) olmuşdur. **42** dizayn əsəri (2023-cü ildə **16**), **16** dekorativ tətbiqi sənət əsəri (2023-cü ildə isə **7**) və **5** mültimedia əsəri (2023-cü ildə qeydiyyat üçün mültimedia əsəri təqdim olunmamışdır) qeydiyyata alınmışdır.

Hüquqların verilməsi barədə **35** müəllif müqaviləsi (2023-cü ildə **29**) və **32** kompüter proqramı qeydiyyatdan keçirilmişdir.

Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən indiyədək Agentlikdə **16228** sər və əlaqəli hüquqların obyektləri, o cümlədən **2125** əsər elektron qaydada qeydiyyatdan keçirilmişdir.

**1996-2024-cü illərdə qeydiyyatdan keçirilmiş əsərlərin təsnifatı aşağıdakı kimidir:**



Qeyd. İxtira üzrə 2024-cü ildə qadın iddiaçıların sayı **13**-ü, qadın müəlliflərin (o cümlədən şərik müəlliflərin) sayı **354** və əmtəə nişanlarının qeydiyyatı üçün müraciət edən iddiaçıların sayı **128** qadın olmuşdur.

Əsərləri qeydiyyatdan keçirilmiş müəlliflərin isə **95** nəfəri qadındır. Onların **154** əsəri qeydiyyatdan keçirilmişdir.

**13. Əqli mülkiyyət hüquqlarının təminatı.** Pozulmuş əqli mülkiyyət hüquqlarının bərpası ilə bağlı Agentliyə **100-dən** çox yazılı müraciət, o cümlədən pozulmuş müəlliflik hüquqlarının bərpasına köməklik göstərilməsi barədə **19**, əmtəə nişanlarından qanunsuz istifadəyə dair **95** müraciət daxil olmuşdur. Müraciətlərin hər biri Agentliyin səlahiyyətləri çərçivəsində araşdırılmış və nəticələrə uyğun müvafiq tədbirlər görülmüşdür.

Əmtəə nişanlarından qeyri-qanuni istifadə ilə bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin və ya hüquq sahiblərinin müraciətləri əsasında **32** ekspert rəyi hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Agentliyin nümayəndələri əqli mülkiyyət məsələləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş **50-yə** yaxın iş üzrə **80-dək** məhkəmə iclasında iştirak etmiş, hər bir işə dair ekspert rəyi hazırlanmış və hüquq sahibləri üçün maarifləndirmə tədbirləri keçirilmişdir.

Agentliyin “960” Çağrı Mərkəzi vasitəsi ilə **“Hüquq məsləhətxanası”**na il ərzində müəlliflər və digər hüquq sahibləri tərəfindən 1000-ə yaxın müraciət daxil olmuş və müraciətlərin hər biri cavablandırılmışdır.

Hesabat dövründə sənaye mülkiyyəti ilə bağlı cavabdeh qismində Agentliyə qarşı inzibati icraat qaydasında məhkəmələrdə qaldırılan və 2024-cü ildə yekunlaşmış **17** iddiadan **15-i** rədd edilərək, Agentliyin mövqeyinin qanuni və əsaslı olması barədə müvafiq qərarlar qəbul olunmuşdur.

**Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasına 269 müraciət** (2023-cü ildə **275**) daxil olmuşdur. Ötən dövrdə əmtəə nişanlarına dair **121** ərizə təmin olunmuşdur. Digər müraciətlər isə qanunvericilikdə müəyyən edilmiş qaydada baxılmaqdadır.

**14. Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasına 269 müraciət** (2022-ci ildə 243, 2023-cü ildə 275) **daxil olmuşdur.** Ötən dövr üzrə daxil olmuş və yekunlaşdırılmış işlər də nəzərə alınmaqla, **271** işə (2022-ci ildə 252, 2023-cü ildə 244 iş) baxılmış, **121** (əmtəə nişanına dair ərizə) iş (2022-ci ildə 105, 2023-cü ildə 100 iş) üzrə ərizənin təmin edilməsi, **43** iş (2022-ci ildə 35, 2023-cü ildə 45 iş) üzrə ərizənin qismən təmin edilməsi, **86** iş (2022-ci ildə 95, 2023-cü ildə 73 iş) üzrə ərizənin rədd edilməsi, **17** ərizənin (2022-ci ildə 17, 2023-cü ildə 17 ərizə) baxılmamış saxlanılması və **4** ərizənin (2022-ci ildə olmamışdır, 2023-cü ildə 7 ərizə) verilməmiş hesab edilməsi barədə qərarlar qəbul edilmişdir.

Əqli mülkiyyət hüquqlarının qorunması və təminatı sahəsində piratçılığa qarşı mübarizə və hüquqların təminatı üzrə tədbirlər çərçivəsində müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin nəzarət markası ilə yayımının təmin edilməsi məqsədilə il ərzində **43325** nəzarət markası (2023-cü ildə **62191)** çap edilərək hüquq sahiblərinə təhvil verilmişdir.

**15. Əqli mülkiyyət sahəsində beynəlxalq əməkdaşlıq.** 2024-cü ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) və əqli mülkiyyət üzrə regional qurum olan Avrasiya Patent Təşkilatı (APT) ilə əməkdaşlıq daha da genişləndirilmişdir.

**18-19 aprel tarixlərində** Moskva şəhərində Avrasiya Patent Təşkilatı (APT), Rusiyanın Əqli Mülkiyyət üzrə Federal Xidməti (ROSPATENT), Rusiya Ali İqtisadiyyat Məktəbi Milli Tədqiqat Universitetinin “UNESCO-nun müəlliflik hüququ, əlaqəli, mədəni və informasiya

hüquqları kafedrası" Beynəlxalq Elm-Təhsil Mərkəzi və Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyasının birgə təşkilatçılığı ilə **"Müəllif/Author - 2024"** IV Beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Tədbirin açılışında ROSPATENTin rəhbəri Yuriy Zubov, UNESCO kafedrasının direktoru professor Mixail Fedotov, APT-nın prezidenti Qriqoriy İvliyev, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Rusiya Federasiyasındakı ofisinin rəhbəri Pavel Spitsin, Rusiya Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsinin sədri Liliya Qumerova, Cənubi Afrika Respublikasının Şirkətlər və Əqli Mülkiyyət üzrə Komissiyasının komissarı Rori Voller və başqaları çıxış ediblər.

M.Fedotovun moderatorluğu ilə keçirilən plenar iclasda Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov **"Müəlliflik, müəllifliyi qoruma hüququ və müəllif hüquqları"** mövzusunda geniş məruzə ilə çıxış edib.

Məruzədə müəllifliyin fərdi yaradıcılıq töhfəsinin sosial-mədəni tanınması institutu olması, müəllifliyi qoruma hüquqlarının mahiyyəti, sənaye mülkiyyəti obyektlərinə münasibətdə müəllif hüquqlarının qorunması, o cümlədən əqli mülkiyyət sahəsində regional inteqrasiya məsələlərinə toxunulub.

Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Ermənistan və Türkmənistanın üzv olduqları Avrasiya Patent Təşkilatının (APT) icraçı orqanı olan Avrasiya Patent İdarəsinin (APİ) prezidenti Qriqoriy İvliyev **4-6 iyun tarixlərində** Azərbaycanda işgüzar səfərdə olub.

Q.İvliyev Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov tərəfindən qəbul edilib. Qəbul zamanı ikitərəfli əməkdaşlığın perspektivləri, ekspertizanın aparılmasında APT-nın xidmətlərindən istifadə imkanları, rüsumların indeksləşdirilməsi və digər məsələlər müzakirə olunub.

Q.İvliyev Azərbaycana səfəri çərçivəsində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ilə görüşüb. Görüşdə Avrasiya regionunda əqli mülkiyyətin inkişaf perspektivləri müzakirə olunub. Q.İvliyev yeni regional əqli mülkiyyət obyektlərinə (vahid Avrasiya əmtəə nişanı və vahid Avrasiya faydalı modeli) tələbatı qeyd edib və mübahisələrin həlli sisteminin təkmilləşdirilməsi və ümumi Avrasiya patent məhkəməsinin yaradılması üzrə öz fikirlərini bildirib. O, Azərbaycan Respublikasında əqli mülkiyyət sahəsində dövlət idarəçiliyi sistemini yüksək qiymətləndirib. Qeyd edib ki, APT bu sahədə vahid qurumun yaradılmasında Azərbaycanın təcrübəsinin mütərəqqi xarakteri ilə bağlı mövqeyini təşviq edir.

Azərbaycana səfəri zamanı Q.İvliyev həmçinin Bakı Enerji Forumunda iştirak və "Yaşıl və hidrogen enerjisi: patentləşdirmə məsələləri" mövzusunda məruzə ilə çıxış edib.

**2024-cü ilin 9-17 iyul tarixlərində** Cenevrə şəhərində keçirilmiş Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) üzv-dövlətlərinin Assambleyalarının 65-ci sessiyasında Agentliyin İdarə Heyətinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti hibrid formatda (nümayəndə heyətinin 4 nəfəri sessiyada fiziki iştirak etmişdir) iştirak etmişdir.

Baş Assambleyanın iclasında onlayn rejimdə çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi köklü islahatlar ideologiyasının əsasında ölkəmizdə yaradıcı sahibkarlar, investisiyalar və rəqabətqabiliyyətli bazarlarla yanaşı innovasiyaları dəstəkləyən əqli mülkiyyətin prioritet kimi önə çəkildiyini vurğulamışdır. Qeyd etmişdir ki, Azərbaycan öz səylərini yerli innovativ potensialın və milli kreativ iqtisadiyyatın inkişafına, o cümlədən işğaldan azad edilmiş torpaqlarda ağıllı kənd (smart kənd) və ağıllı şəhərlərin (smart şəhərlərin) yaradılmasına yönəldib.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" kimi mühüm sənədlərdə bu öz əksini tapır və eyni zamanda ÜƏMT-nin 2022-2026-cı illər üçün Ortamüddətli Strateji Planının müddəaları ilə əlaqələndirilir. K.İmanov ÜƏMT-nın 2024-cü il üzrə "İnnovasiya

siyasəti inkişafın aləti kimi" hesabatının tezislərinə əsaslanaraq bildirmişdir ki, Azərbaycan öz səylərini yerli innovativ potensialın və milli kreativ iqtisadiyyatın inkişafına, o cümlədən işğaldan azad edilmiş torpaqlarda ağıllı kənd (smart kənd) və ağıllı şəhərlərin (smart şəhərlərin) yaradılmasına yönəldib. Çıxışda ölkəmizdə təklif olunan qanunvericilik layihələrində müəlliflik hüququ və sənaye mülkiyyəti, eləcə də ənənəvi biliklər və ənənəvi mədəni nümunələr arasında qarşılıqlı əlaqənin nəzərə alındığı, ÜƏMT-nın IPAS (Industrial Property Administration System) sistemi ilə inteqrasiya olunmuş milli PƏNAH (Patent və Əmtəə Nişanlarına Açıq Hədəf) sistemi əsasında inzibati prosedurların rəqəmsal transformasiyasının istənilən yerdən vahid rəqəmsal məkanda 24/7 rejimində daxil olmaq imkanı ilə təmin edildiyi, son illər ərzində Agentliyin dəstəyi ilə iki universitetdə (Bakı Dövlət Universiteti və Azərbaycan İnşaat və Memarlıq Universiteti) əqli mülkiyyət kafedralarının yaradıldığı diqqətə çatdırılmışdır.

Sessiya çərçivəsində Agentliyin İdarə Heyətinin üzvü Sənan Tapdıqovun rəhbərliyi ilə bilavasitə iştirak edən nümayəndə heyəti ilk olaraq ÜƏMT-nin Keçid və İnkişaf Etmiş Dövlətlər bölməsinin direktoru Habip Asanla görüş keçirilmişdir. Görüşdə ikitərəfli əlaqə və əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivləri müzakirə edilib. Söhbət zamanı həmçinin hazırda uğurla birgə həyata keçirilən kiçik və orta sahibkarlığa dəstək məqsədli layihənin daha əhatəli istiqamətdə inkişaf etdirilməsi üçün bundan sonrakı tədbirlərin müəyyən edilməsinin zəruriliyi barədə razılıq ifadə edilmişdir.

ÜƏMT-nin Patent və Texnologiyalar Hüququ şöbəsinin müdiri Andraş Jometi ilə görüşdə Azərbaycanın ÜƏMT tərəfindən idarəçiliyi həyata keçirilən Patent Hüququ Müqaviləsinə (PLT) qoşulması məsələsi müzakirə edilmiş, ÜƏMT nümayəndəsi ölkəmizin PLT-yə qoşulması prosesində istənilən dəstəyin verilməsinə hazır olduqlarını diqqətə çatdırmışdır.

ÜƏMT nümayəndələri ilə həmçinin Agentlikdə inzibati prosedurların rəqəmli transformasiyasının təmin edilməsi məqsədilə PƏNAH (Patent və Əmtəə Nişanlarına Açıq Hədəf) milli platformasının ÜƏMT-nin Sənayə Mülkiyyətinin İdarəedilməsi Sistemi (Industrial Property Administration System – IPAS) ilə inteqrasiyası məsələsinin müxtəlif aspektləri müzakirə edilmişdir.

S.Tapdıqovun ÜƏMT-nin Müəlliflik hüququ və Kreativ industriya Departamentinin müəlliflik hüququ bölməsinin direktor müavini Dimiter Qançevlə görüşündə isə yaradıcı sənayenin iqtisadiyyatda payının hesablanması üzrə metodologiyanın tətbiqinə dair birgə layihənin həyata keçirilməsinin məqsədəuyğunluğu müzakirə edilib.

Azərbaycan nümayəndə heyətinin Moldova, Türkiyə, Qazaxıstan və Belarusun əqli mülkiyyət sahəsində idarəçiliyi həyata keçirən qurumların rəhbərlikləri ilə də görüşləri olub.

Avrasiya Patent Təşkilatının İnzibati Şurasının (APT İŞ) qərarına əsasən, ÜƏMT Assambleyaları çərçivəsində Avrasiya Patent Konvensiyasının imzalanmasının 30 illiyinə həsr edilən tədbirlər sırasında APT İŞ-nın növbədənkənar iclası keçirilib, həmçinin APT üzv-dövlətlərinin gənc ixtiraçılarının sərgisi təşkil olunub. Ölkəmizi sərgidə "Tibbi nəqliyyatın avtomatlaşdırılmış idarəetmə sistemi" və "Avtomatlaşdırılmış suvarma idarəetmə sistemi" adlı ixtiraları ilə Rüfət Şıxıyev və Şahin Xəlilov təmsil ediblər.

**3-6 sentyabr tarixlərində** Bakıda Əqli Mülkiyyət Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə təşkilatçılığı ilə "İqtisadi artım və rəqabət qabiliyyətliliyin yaxşılaşdırılması üçün əqli mülkiyyət aktivlərindən istifadə məqsədilə Azərbaycanın aqrar-ərzaq sektorunda mikro və kiçik biznesin dəstəklənməsi üzrə ÜƏMT Layihəsinin Benefisiarları üçün təlim" keçirilmişdir.

**9-10 sentyabr tarixlərində** Moskva şəhərində Avrasiya Patent Təşkilatının (APT) İnzibati Şurasının 45-ci (növbəti 31-ci) iclası keçirilib.

APT-nın icraçı orqanı olan Avrasiya Patent İdarəsinin (APİ) prezidenti Qriqoriy İvliyevin hesabatı dinlənilmiş, təşkilatın büdcə xərcləri, Avrasiya patentlərinin qüvvədə saxlanılması üçün ödənişlər, APT üzv-dövlətlərinin nümayəndələrinin ixtisasartırma və təhsil proqramlarında iştirakı və digər məsələlər barədə geniş məlumat verilmişdir.

İclasda İnzibati Şuranın sədri vəzifəsinə seçkilər keçirilib. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov APT İnzibati Şurasının sədri seçilmişdir.

Tədbirə onlayn formatda qoşulan K.İmanov göstərilən etimada görə Şura üzvlərinə təşəkkürünü bildirərək, təşkilatın fəallığının gücləndirilməsi istiqamətində İnzibati Şura üzvlərinin potensialından daha səmərəli istifadə olunmasına çalışacağını və ümumi məqsədlər naminə Şuranın işinə yeni töhfələr verəcəyini qeyd etmişdir.

Agentliyin nümayəndələri **10-14 sentyabr tarixlərində** Pekin şəhərində "Bir Kəmər, Bir Yol" layihəsi çərçivəsində keçirilən 3-cü Əqli Mülkiyyət üzrə Yüksək Səviyyəli Konfransda, **4 oktyabr tarixində** Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Asiya ölkələri üçün “Qlobal İnnovasiya İndeksi - 2024” hesabatının regional təqdimat mərasimində, **25-26 oktyabr tarixlərində** İstanbul şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) sənaye elm, texnologiya və innovasiya nazirlərinin 1-ci iclasında iştirak etmişlər.

**11-22 noyabr tarixlərində** Səudiyyə Ərəbistanın paytaxtı Ər-Riyad şəhərində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Dizayn Hüququ Müqaviləsinin qəbul edilməsi üzrə keçirilən Diplomatik konfransda Agentliyin İdarə Heyətinin sədrinin müşaviri Gülnarə Rüstəmova və İdarə Heyətinin sədrinin hüquq məsələləri üzrə köməkçisi Əkbər Əliyev iştirak ediblər.

Diplomatik konfrans çərçivəsində nümayəndələrimiz ÜƏMT-nın Baş direktorunun müavini xanım Vanq Binyinqlə görüşüb. Görüşdə Azərbaycanda mövcud əqli mülkiyyət sferası üzrə vəziyyət, əqli mülkiyyət sisteminin inkişafı ilə əlaqədar əldə edilmiş müsbət nəticələr, əqli mülkiyyət sahəsində dövlət siyasəti və Əqli Mülkiyyət Agentliyin strukturu, habelə qanunvericiliyin mövcud vəziyyəti barədə məlumat verilib. Y.Binyinq ÜƏMT-nin milli və regional səviyyədə əqli mülkiyyət sisteminin inkişafı üçün dəstək verməyə hər zaman hazır olduğunu qeyd edib. Söhbət zamanı Azərbaycanın Haaqa Sazişinə uyğun olaraq sənaye nümunələrinin beynəlxalq qeydiyyatı üzrə böyük potensialının olduğu, Azərbaycanın Lissabon Müqaviləsinə qoşulmasının vacibliyi və əqli mülkiyyətə dair digər məsələlər müzakirə edilib.

Tədbir çərçivəsində Azərbaycan nümayəndələrinin Macarıstan Əqli Mülkiyyət Ofisinin rəhbəri Szabolcs Farkasın rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilmiş görüşdə ölkəmizdə əqli mülkiyyət sahəsində əldə olunan uğurlar, əqli mülkiyyət obyektlərinin qeydiyyatı üzrə müraciətlərin tam elektronlaşdırılması, Agentliyin effektiv idarəetməyə imkan verən strukturu, Azərbaycanda əqli mülkiyyət ekosistemi barədə məlumat verilib.

Eyni zamanda, nümayəndə heyətimiz ÜƏMT və Amerika Universitetinin Vaşinqton Hüquq Kollecinin birgə təşkilatçılığı ilə “Dizayn Hüququ Müqaviləsi üzrə akademik perspektivlər: açıqlanma, süni intellekt və ictimai maliyyələşdirmə” mövzusunda tədbirdə də iştirak edib. Tədbirdə nümayəndə heyətimizin təşəbbüsü ilə süni intellekt tərəfindən hazırlanan dizayn əsərlərin qeydiyyata alınması və müstəsna hüquqların kimə məxsus olmasına dair müzakirə keçirilib.

**18 noyabr tarixində** Bakıda təşkil olunmuş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak edən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş direktorunun köməkçisi cənab Edvard Kvakvanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Əqli Mülkiyyət Agentliyində işgüzar görüş keçirilmiş, “yaşıl” gələcəyin təmin olunmasında innovasiyaların aparıcı rolu və bu sahədə əqli mülkiyyətin əhəmiyyəti barədə fikir mübadiləsi aparılmışdır.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov qonaqlara “yaşıl” gələcəyin təmin olunmasında innovasiyaların aparıcı rolu və bu sahədə Agentlik tərəfindən aparılan işlər barədə məlumat verdi. Qeyd etdi ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin COP29 iştirakçıları qarşısında etdiyi dərin məzmunlu çıxışlar əqli mülkiyyət yaradıcılarını da

“yaşıl” gələcəyin qurulmasında fəal iştirak etməyə həvəsləndirir.

Kollektiv təcrübəyə, ixtiraçılığa və kreativliyə əsaslanaraq, insan cəmiyyətinin “yaşıl” gələcək yaratmağa qadir olduğunu qeyd edən K.İmanov Azərbaycanda “yaşıl patent”lərə dair iddia sənədlərinin ekspertizasının daha da sürətləndirildiyini bildirdi. O, Prezident İlham Əliyevin uzaqgörənliyi ilə əqli mülkiyyət sahəsində konseptual və institusional islahatlar aparıldığını və bu islahatlar çərçivəsində uğurlu və unikal idarəetmə modelinin yaradıldığını xüsusi olaraq diqqətə çatdırdı. Vurğuladı ki, ÜƏMT tərəfindən dünya üzrə 204 ofis arasından 15 ölkənin mükəmməl idarəetmə strukturuna və inzibatçılıq mexanizmlərinə malik olan əqli mülkiyyət ofisləri sırasına Azərbaycan Əqli Mülkiyyət Agentliyi də daxil edilmişdir. Azərbaycan təcrübəsinə MDB məkanında böyük maraq göstərilir və bu istiqamətdə fəal iş aparılır.

İnfrastrukturun təkmilləşdirilməsi və institusional dəyişikliklər sırasında Agentlikdə sənaye mülkiyyəti obyektlərinin patentləşdirilməsi və qeydiyyatı üçün iddia sənədlərinin qəbulu 24/7 rejimində fəaliyyət göstərən “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) rəqəmli informasiya sistemi vasitəsilə həyata keçirilir. Bu barədə qonaqlara geniş məlumat verən K.İmanov bildirdi ki, PƏNAH sistemi sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və patentləşdirilməsi sahəsində göstərilən xidmətlərin keyfiyyətinin, habelə ixtira və patent fəallığının artmasına müsbət təsir göstərir. Məlumat verildi ki, bu sistem vasitəsi ilə tətbiq edilən “vahid pəncərə” və “istənilən yerdən xidmətə əlçatanlıq” prinsipi açıqlığı, operativliyi və şəffaflığı təmin etmiş, əqli mülkiyyət üzrə göstərilən dövlət xidmətlərinin səmərəsini və səviyyəsini artırmışdır.

Azərbaycan Əqli Mülkiyyət Agentliyinin rəhbəri Sənaye Mülkiyyəti Obyektlərinin Açıq Reyestrlərinin yaradılması, MDB məkanında və Şərqi Avropa ölkələrində ilk dəfə 2003-cü ildə Azərbaycanda folklor nümunələrinin hüquqi qorunması haqqında qanunun qəbul edildiyi barədə də qonaqları məlumatlandırmışdır.

Görüşdə ikitərəfli əməkdaşlığın perspektivləri və əqli mülkiyyətin inkişafı sahəsində digər məsələlər də müzakirə olunmuşdur.

ÜƏMT-nin Xarici əlaqələr şöbəsinin məsləhətçisi cənab Ryszard Frelek görüşdə iştirak etmişdir.

**2-3 dekabr tarixlərində** Bakı şəhərində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə təşkilatçılığı ilə keçirilən **“Kreativ iqtisadiyyat: data modeli, ölçülməsi və əqli mülkiyyət”** mövzusunda beynəlxalq regional seminar keçirilmişdir. Azərbaycan ilə ÜƏMT arasında kreativ iqtisadiyyat sahəsində əməkdaşlığın davamı olan regional seminarda ÜƏMT-nın department direktorunun müavini Dimiter Qançevin rəhbərlik etdiyi nümayəndə heyəti, habelə Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan əqli mülkiyyət ofislərinin nümayəndələri iştirak etmişlər.

İki gün davam edən regional seminarda Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun “Əqli mülkiyyətin yenidən dərk edilməsi və kreativ iqtisadiyyat” mövzusunda təqdimatı dinlənilib.

Təqdimatda dövlət başçısının Fərmanla təsdiq etdiyi Agentliyin Nizamnaməsində “fəaliyyətinin istiqamətləri” və “vəzifələri” kimi “əqli mülkiyyətin müasir iqtisadiyyatda rolunun artırılması və müəlliflik hüququna əsaslanan iqtisadiyyatda (kreativ iqtisadiyyatda) investisiya mühitinin yaxşılaşdırılması, əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması və kreativ iqtisadiyyatın ölkənin ümumi daxili məhsulundakı payının müəyyən edilməsi, həmçinin texnologiyaların transferinin, innovasiyalara dəstək və kommersiyalaşdırılma infrastrukturunun yaradılması ilə bağlı tədbirlər görmək” (2.2.8-ci yarımbənd) müddəalarının yer aldığı bildirilib. Vurğulanıb ki, Agentliyin Nizamnaməsinin 3.1.44-cü yarımbəndində müəlliflik hüququna əsaslanan iqtisadiyyat “kreativ iqtisadiyyat” kimi göstərilmişdir. Üstəlik, “əqli mülkiyyət hüquqlarına əsaslanan milli iqtisadiyyat sahələrinin iqtisadi göstəricilərinin daimi müşahidəsini aparmaq, ümumi daxili məhsulda əqli mülkiyyətə əsaslanan sənayenin payını daha dəqiq

dəyərləndirmək üçün müvafiq işlər görmək, əqli fəaliyyət nəticələri ilə bağlı beynəlxalq reytinqlərdə ölkəmizin reytinqinin müşahidəsini həyata keçirmək, təhlillər aparmaq və təkliflər hazırlamaq" (3.1.43-cü bənd) kimi müddəalar yer almışdır. ÜƏMT-nın mütəxəssisləri tərəfindən kreativ iqtisadiyyatın aktual məsələlərinə dair maraqlı təqdimatlar edilmişdir. ÜƏMT-nin department direktorunun müavini Dimiter Qançev "Kreativ iqtisadiyyatın mövcud ölçmə modellərinə ümumi baxış" mövzusunda məruzə ilə çıxış etmişdir. O, yaradıcı sektorun müxtəlif aspektlərinə toxunaraq kreativ sənaye tədqiqatlarının təkamülü, bu sahədə ÜƏMT metodologiyası, kreativ dəyər zənciri haqqında ətraflı məlumat vermişdir. Yaradıcı sənayelərin iqtisadiyyatın mühüm sektorlarından biri olduğunu, hər bir ölkənin ümumi daxili məhsula (ÜDM) və məşğulluğa əhəmiyyətli töhfələr verdiyini vurğulayan D.Qançev bununla əlaqədar bir sıra statistik göstəriciləri təqdim edib.

Qeyd edək ki, Azərbaycan ÜƏMT-nın yeni CEDM - kreativ İqtisadiyyatın Data (məlumat) modelinin tətbiqi ilə bağlı pilot layihənin icrasına başlayan ilk ölkələr sırasındadır və tədbirdə bu barədə geniş müzakirələr aparıldı.

**16-17 dekabr tarixlərində** Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Keçid və inkişaf etmiş dövlətlər departamentinin direktoru Habip Asan ölkəmizə səfərə gəlmişdir. Səfər çərçivəsində Əqli Mülkiyyət Agentliyində Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin, ixtira və patent fəallığı ilə fərqlənən, texnoloji transfer mərkəzlərinin fəaliyyət göstərdiyi, eləcə də belə mərkəzlərin yaradılması istiqamətində müvafiq iş aparan bir sıra universitetlərin, o cümlədən Qarabağ Universitetinin rəhbərləri ilə görüş keçirilib.

Səfər çərçivəsində Habip Asan Bakı Mühəndislik Universitetinin maddi-texniki bazası, o cümlədən yeni texnologiyaların tədris prosesinə tətbiqi ilə bağlı burada yaradılan şəraitlə tanış olmuşdur.

**16. Erməni saxtakarlıqlarının və erməni plagiatçılığının ifşası.** Erməni saxtakarlıqlarının ifşasına dair Agentlik tərəfindən 2016-cı ildən başlayaraq **"Don bəzəyər də, ifşa edər də"** seriyasından kitab və broşurlar nəşri davam etdirilmişdir. 2024-cü ildə bu seriyadan Agentlik tərəfindən hazırlanmış "Qərbi Azərbaycan torpaqları qədim və klassik mənbələrdə və DNT-analiz" və "Земли Западного Азербайджана в древних и классических источниках и ДНК-анализ" adlı yeni kitabları (müəllif K.İmanov) Azərbaycan və rus dillərində nəşr olunaraq yayılmışdır.

**"Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü"** münasibətilə ölkəmizdə hər il erməni saxtakarlıqlarının ifşasına həsr olunan və 2016-cı ildən başlayaraq **"Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir..."** devizi altında silsilə mövzular üzrə keçirilən tədbirlərin davamı olaraq 2024-cü ildə Əqli Mülkiyyət Agentliyi və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə **"Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Qərbi Azərbaycan torpaqları nədən bəhs edir"** mövzusunda növbəti konfrans keşirilmişdir. Görkəmli alimlərin, tədqiqatçıların və tanınmış ictimai xadimlərin qatıldığı tədbirdə klassik mənbələr, tarixi sənədlər və faktlar əsasında ermənilərin maddi və qeyri-maddi mədəniyyət nümunələrimizə, eləcə də torpaqlarımıza olan iddialarının əsassızlığı göstərilmiş və erməni uydurmaları ifşa edilmişdir.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" komediyasının musiqisinin bir hissəsinin və Azərbaycan musiqi irsinin digər nümunələrinin ermənilər tərəfindən mənimsənilməsi ilə bağlı və Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Mədəniyyət Nazirliyi ilə birgə bəyanatı yayılmışdır. Bəyanatda "O olmasın, bu olsun" komediyasının musiqisinin bir hissəsinin erməni bəstəkarı Arno Babacanyanın "müəllifliyi" ilə "Vaqarşabat rəqsi" adı altında "Youtube" platformasında yerləşdirilməsinə ciddi etiraz bildirilmiş, Üzeyir Hacıbəylinin müəllif hüquqlarının bərpa edilməsi, habelə Ermənistan Respublikasının ərazisində və ya onun subyektləri tərəfindən Azərbaycan mədəni irsi, xüsusilə

də musiqi irsi nümunələrinin kütləvi şəkildə mənimsənilməsi hallarını aradan qaldırmaq və görülən tədbirlər barədə məlumat verilməsi tələb olunmuşdur.

Sözləri və musiqisi Azərbaycan bəstəkarı Bəhram Nəsibova məxsus olan “Qarabağ” (“Anadır arzulara hər zaman Qarabağ”) adlı mahnının sözləri erməni ifaçısı Gor Yepremyan tərəfindən dəyişdirilmiş və onun ifasında “Sirun jan” adı altında “Armenian Folk”, yəni “erməni xalq mahnısı” qeydi ilə “Youtube” platformasında yerləşdirilmişdi. Agentlik tərəfindən görülən tədbirlər nəticəsində erməni Gor Yepremyanın erməni nümunəsi kimi təqdim olunan bu mahnı “Youtube” platformasından və “Youtube Music”, “Spotify”, “Apple Music”, “Amazon Music”, “Deezer” və digər rəqəmsal musiqi platformalarından silinmişdir.

Qeyd edilən məsələ ilə əlaqədar Əqli Mülkiyyət Agentliyi tərəfindən 2024-cü il 9 iyul tarixində geniş şərh, 10 iyul tarixində Agentliyin Mədəniyyət Nazirliyi ilə Birgə Bəyanatı yayılmışdır.

Agentlik musiqisi Azərbaycan bəstəkarı, əməkdar incəsənət xadimi Cavanşir Quliyevə məxsus, sözləri bayatılardan ibarət olan “Yarımgilə” adlı mahnısının sözləri erməni ifaçı Minas Ovanesyan (Mino) tərəfindən dəyişdirilərək “Xrovel e im yare” adı ilə ifa edilmiş və “Youtube” platformasında yerləşdirilmişdi. Əqli Mülkiyyət Agentliyi bu erməni oğurluğunun da qarşısını almış və Minas Ovanesyanın (Mino) ifa etdiyi “Xrovel e im yare” adlı mahnı “Youtube” platformasında 5 (beş) səhifədən silinmişdir.

“Youtube” platformasının **“BehrooZ Abshar”** adlanan səhifəsində erməni musiqi nümunələri kimi yerləşdirilmiş Azərbaycanın xalq artisti Şövkət Ələkbərovanın ifa etdiyi “Yar gəldi, yar” (musiqisi bəstəkar Adil Gəraya, sözləri Əli Kərimə məxsusdur), “Töhfə” (musiqisi bəstəkar Firəngiz Babyevaya, sözləri Baba Vəziroğluna məxsusdur), “Getmə amandır” (musiqisi Hacı Xanməmmədova, sözləri Aşıq Ələsgərə məxsusdur), “Yavaş-yavaş” (musiqisi Nazil Qəmərlinskiyə, sözləri Bəxtiyar Vahabzadəyə məxsusdur) və “Bayram şamları” (musiqisi bəstəkar Cahangir Cahangirova, sözləri Şıxəli Qurbanova məxsusdur) mahnıları da Əqli Mülkiyyət Agentliyinin gördüyü tədbirlər nəticəsində həmin platformadan silinmişdir.

**17. Kompüter şəbəkəsinin və informasiya resurslarının idarə olunması.** Agentliyin Aparatında və onun tabeliyində olan qurumların fəaliyyəti ilə bağlı vahid kompüter şəbəkəsinin və informasiya resurslarının idarə olunması, internet səhifələrinin təkmilləşdirilməsi, proqram təminatlarının yenilənməsi, informasiya təhlükəsizliyi, elektron xidmətlərin təşkili, Agentliyin fəaliyyəti haqqında məlumatların mediada və sosial şəbəkələrdə işıqlandırılması, habelə əqli mülkiyyətlə bağlı kitab və broşurların nəşri təmin edilmişdir.

Hesabat dövründə İdarə Heyətinin sədri K.İmanovun müəllifliyi ilə aşağıdakı kitablar nəşr edilmişdir:

1. “Müəlliflik, müəllifliyi qoruma hüququ və müəllif hüquqları”;
2. “Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Qərbi Azərbaycan torpaqları nədən bəhs edir və DNK-analiz” kitabı (Azərbaycan və rus dillərində);
3. “İnnovasiya və yaradıcılıq naminə müəllifliyin dəstəklənməsi” (Azərbaycan və rus dillərində);
4. “Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə” (COP29-a doğru);
5. “Kreativ iqtisadiyyat: data modeli, ölçülməsi və əqli mülkiyyət” (Azərbaycan və ingilis dillərində)
6.“2018-2023-cü illərdə Azərbaycanda sənaye nümunələrinin, coğrafi göstəricilərin və əmtəə nişanlarının analitik icmalı”
7. “2018-2023-cü illərdə Azərbaycanda ixtiraçılıq və patent analitikası.

**18.** Agentliyin aparatında dövlət qulluğuna qəbul və kadrlarla iş dövlət qulluğu sahəsini tənzimləyən normativ hüquqi aktların və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin tələblərinə uyğun aparılmışdır. Hesabat ilində Agentliyin Aparatına 4 nəfər, onun tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə 2 nəfər, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinə 7 nəfər, Respublika Elmi-Texniki Kitabxanasına 3 nəfər, Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinə 2 nəfər işə qəbul edilmişdir.

6 nəfər Agentliyin Aparatından, 3 nəfər Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzindən, 9 nəfər Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzindən, 7 nəfər Respublika Elmi-Texniki Kitabxanasından, 2 nəfər Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzindən öz xahişləri ilə işdən azad olunmuşdur.

Hesabat ilinin sonuna Agentliyin Aparatı və tabeliyində olan qurumlar üzrə işçilərin ümumi sayı 249 nəfər, o cümlədən Agentliyin Aparatında 66 nəfər, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində 28 nəfər, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzində 70 nəfər, Respublika Elmi-Texniki Kitabxanasında 79 nəfər, Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzində 6 nəfər olmuşdur.

Dövlət qulluqçusu hesab olunan 6 nəfərə (Aytac Məmmədova, Humay Sadıqova, İlahə Səmədova, Turan Babakişiyeva, Nərmin Hünbətova (Muradbəyli), Telman Əzizov) müvafiq ixtisas dərəcələri verilmişdir.

2024-cü ildə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən Agentlikdə vakant olan inzibati vəzifələrin tutulması üçün müsabiqənin müsahibə mərhələsi üzrə 2 yer *(İnformasiya texnologiyaları şöbəsinin Kütləvi informasiya vasitələri ilə iş sektorunda məsləhətçi və Müəllif-hüquq obyektlərinin qeydiyyatı və hüquq ekspertizası şöbəsi, Qeydiyyat və hüquq ekspertizası sektorunda məsləhətçi)* elan edilmiş və müsahibədən müvəffəqiyyətlə keçmiş 9 nəfərdən (*İnformasiya texnologiyaları şöbəsi, Kütləvi informasiya vasitələri ilə iş sektorunda məsləhətçi vəzifəsi üzrə - Günel İsgəndərli, Gülnar Məhyəddinli, Aysel Quliyeva, Aytən Əhmədova və Müəllif-hüquq obyektlərinin qeydiyyatı və hüquq ekspertizası şöbəsi, Qeydiyyat və hüquq ekspertizası sektorunda məsləhətçi vəzifəsi üzrə - Sevil Balayeva, Sevinc Şirinova, Aydan Əliyeva, Hülya Əhmədova, Aytən Yusifli*) 2 nəfəri (**Gülnar Məhyəddinli** və **Aydan Əliyeva**) elan edilmiş vakant vəzifələrə və 2 nəfər (**Günel İsgəndərli** və **Aysel Quliyeva**) Agentlikdə vakant olan analoji vəzifələrə staj müddətilə təyin edilmişlər.

Agentlikdə vakant olan inzibati vəzifələrin tutulması üçün 3 yer üzrə daxili və ümumi müsahibə *(Beynəlxalq əlaqələr şöbəsinin müdiri, İdarə Heyəti sədrinin köməkçisi - hüquq məsələləri üzrə və Müəllif-hüquq obyektlərinin qeydiyyatı və hüquq ekspertizası şöbəsi, Qeydiyyat və hüquq ekspertizası sektorunun baş məsləhətçisi)* keçirilmiş və müsahibədə müvəffəqiyyət qazanmış 3 nəfər (**Əfsanə Mirzəzadə**, **Əkbər Əliyev** və **Nilufər Nəsibli**) daha yüksək inzibati vəzifələrə təyin edilmişlər.

Agentliyin 3 əməkdaşı (şöbə müdiri **Ülviyyə Xasayeva**, sektor müdiri **Vüsal Əliyev** və baş məsləhətçi **Aydan Hüseynova**) Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunan "İdarəetmədə kouçinqin bir metod və alət kimi tətbiqi", "Ehtiyat kadrların idarə edilməsi" və "Dövlət qulluğu – Ehtiyat Kadrların İdarə Edilməsi Sistemi"ndən istifadə qaydaları" və "İşgüzar fəaliyyətin səmərəli təşkili" mövzusunda təlimlərdə iştirak etmişdir.

Agentliyinin və tabeliyində olan qurumların **13** əməkdaşı ÜƏMT Akademiyasının distant təhsil və ixtisasartırma kurslarında, həmçinin əqli mülkiyyət sahəsi ilə bağlı milli və beynəlxalq kurs, seminar və konfranslarda iştirak edərək ixtisaslarını artırmışlar.

**19. Daxil olan sənədlər və müraciətlərlə bağlı aparılan iş.** Hesabat ilində Agentliyə daxil olan sənədlərin sayı **2583**-dür.

Hesabat ilində Agentliyin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasına 269 müraciət, bilavasitə əsərlərin qeydiyyatı ilə bağlı 685 ərizə, nəzarət markasının alınması üçün 51 ərizə daxil olmuşdur.

Agentliyin Aparatında və tabeliyində olan qurumlarda kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun aparılır. Agentliyə dövlət qurumlarından və hüquqi şəxslərdən daxil olan çoxsaylı məktublara və vətəndaş müraciətlərinə baxılmasına və operativ cavablandırılmasına ciddi riayət olunur.

Agentlik rəqəmsal idarəçiliyin inkişafı, daxili idarəetmə proseslərinin optimallaşdırılması və elektronlaşdırılmanın təmin edilməsi məqsədi ilə operativ nəzarətin həyata keçirilməsinə imkan verən mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi sisteminə də qoşulmuşdur. Belə ki, 2021-ci il 1 mart tarixindən Agentlikdə "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" ölkə Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən hazırlanmış Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi proqramı tətbiq olunur. Agentlik üzrə tətbiq edilən Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi proqramı "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2279 nömrəli Fərmanın icrası çərçivəsində 2023-cü il 26 dekabr tarixindən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən yaradılmış Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminə inteqrasiya olunmuşdur.

Vətəndaşların qəbulu və qəbulla əlaqədar kargüzarlığın aparılması üzrə iş "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"na uyğun həyata keçirilmişdir.

Hesabat dövründə Agentliyin və tabeliyində olan qurumların rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən **691** vətəndaş qəbul edilmiş, qaldırılan problemlərin həll edilməsi üçün zəruri tədbirlər görülmüşdür.

Hökumət Evində yerləşən dövlət qurumları tərəfindən vətəndaşların qəbulunun vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədi ilə yaradılmış Vətəndaşların Qəbulu Mərkəzində Agentliyinin əməkdaşları tərəfindən **622** vətəndaş qəbul edilmiş, onlara müəlliflik hüququ və əlaqəli hüquq obyektlərinin qeydiyyatı, pozulmuş müəlliflik hüququ və əlaqəli hüquqların bərpası, şəhadətnamənin dublikatın verilməsi, nəzarət markalarının verilməsi və patent və əmtəə nişanının qeydiyyatı ilə bağlı hüquqi məsləhətlər verilmişdir.

Vətəndaşlardan birbaşa Agentliyə **898** müraciət (onlardan **721** elektron qayda üzrə), **15** müraciət isə (onlardan **7** elektron qaydada) aidiyyəti baxılması üçün digər təşkilatlardan daxil olmuşdur (cəmi **913**). Daxil olan müraciətlər əsasən müəllif hüquqları, sənaye mülkiyyəti məsələləri, əsərlərin qeydiyyatı, maliyyə məsələləri, dövlət qulluğu və kadr məsələləri, texnologiyaların kommersiyalaşdırılması və transferi məsələləri, qonorar məsələləri, nəzarət markalarının vurulması və s. məsələləri əhatə edir.

**2024-cü ildə daxil olan vətəndaş müraciətlərinə baxılması barədə ümumiləşdirilmiş məlumat**

| Sıra №-si | Əsas göstəricilər | Ümumi sayı | Ərizə | Şikayət | Təklif | Nəzarət | Təkrar | Kollektiv |
|---|---|---|---|---|---|---|---|---|
| I | **Daxil olan müraciətlər,** o cümlədən: | **913** | **913** | | | | | |
| | - təşkilatın aparatına | **849** | **849** | | | | | |
| | - tabe qurumlara | **64** | **64** | | | | | |
| II | **Müraciətlərin forması:** | | | | | | | |
| | - məktub | **192** | **192** | | | | | |
| | - elektron məktub | **721** | **721** | | | | | |
| | - teleqram | | | | | | | |
| | - faks | | | | | | | |
| III | **Daxil olan müraciətlərin mövzuları:** | | | | | | | |
| | 1. Müəllif hüquqları ilə bağlı | **59** | **59** | | | | | |
| | 2. Sənaye mülkiyyəti ilə bağlı | **303** | **303** | | | | | |
| | 3. Əsərlərin qeydiyyatı ilə bağlı | **511** | **511** | | | | | |
| | 4. Texnologiyaların kommersiyalaşdırılması və transferi məsələləri ilə bağlı | **1** | **1** | | | | | |
| | 5. Nəzarət markaları ilə bağlı | **2** | **2** | | | | | |
| | 6. Maliyyə məsələləri ilə bağlı | **8** | **8** | | | | | |
| | 7. Dövlət qulluğu və kadr məsələləri ilə bağlı | **22** | **22** | | | | | |
| | 8. Digər mövzular | **7** | **7** | | | | | |
| IV | **Müraciətlərə baxılmasının vəziyyəti:** | | | | | | | |
| | - həll olunub | **695** | **695** | | | | | |
| | - qismən təmin edilib | **8** | **8** | | | | | |
| | - rədd edilib (əsassız sayılıb) | **21** | **21** | | | | | |
| | - müvafiq izahat verilib | **171** | **171** | | | | | |
| | - dövlət proqramlarında icrası nəzərdə tutulub | | | | | | | |
| | - icradadır | **14** | **14** | | | | | |
| | - baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilib | **4** | **4** | | | | | |
| | - baxılmamış saxlanılıb | | | | | | | |
| V | **İcra müddəti pozulmaqla baxılan müraciətlərin sayı** | | | | | | | **-** |
| VI | **Təşkilatda baxılmış müraciətlərə verilən cavabların sayı** | | | | | | | **193** |
| VII | **Qəbul edilmiş vətəndaşların sayı,** o cümlədən: | | | | | | | **1313** |
| | - rəhbərin qəbulu (fərdi) | | | | | | | **5** |
| | - rəhbərin səyyar qəbulu | | | | | | | **-** |
| | - təşkilatın vəzifəli şəxslərinin qəbulu | | | | | | | **1050** |
| | - tabe qurumlarda | | | | | | | **258** |

Müraciətlərdən 691-i həll olunmuş, 8-i qismən həll edilib, 171-nə müvafiq izahat verilmiş, 4-ü baxılması üçün aidiyyəti təşkilatlara göndərilib, 21 müraciət əsassız sayılıb, 14 müraciət isə icradadır.

**20. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri.** 2024-cü ildə Əqli Mülkiyyət Agentliyinin Aparatı üzrə tədbirlərinin həyata keçirilməsi ilə bağlı insan resurslarının idarə edilməsi və saxlanılması və tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının saxlanması, fəaliyyətinin təmin edilməsi üçün dövlət büdcəsində nəzərdə tutulan **3 956 709,00** manat və **115,79** manat keçən ilin qalıq vəsait olmaqla cəmi **3 956 824,79** manat vəsait

daxilində aparılmışdır. İllik smeta xərclərinə uyğun olaraq bu vəsaitin **2293847,31** manatı əmək ödənişlərinə (o cümlədən, **2063195,50** manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə və **190622.50** manatı əməyin ödənişi ilə bağlı digər pul ödənişləri, **4961,82** manat hesablanmış aylıq pensiyanın 6 mislinin ödənilməsinə, **20640** manatı ştatdankənar işçilərin əmək haqqının ödənilməsinə, **14427,46** manatı müavinət və iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə), **555957,14** manatı DSMF-na, işsizlikdən sığorta ayırmalarına və icbari sığorta ayırmalarına, **5695,00** manat ezamiyyələr üçün xərclənmişdir. Agentliyin Aparatının saxlanması ilə bağlı digər işlərin görülməsi üçün **220774,16** manat və **7855,08** manat bank xidmətləri üçün xərclər təşkil etmişdir. Agentliyin Aparatı üzrə cəmi faktiki büdcə xərcləri **3084128,69** manat olmuşdur.

Respublika Elmi-Texniki Kitabxanasının illik smeta xərclərinə uyğun olaraq ayrılmış vəsaitdən əmək haqqı ödənişlərinə **657174,12** manat (o cümlədən, **580257,39** manatı ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, **68066,27** manatı sair pul ödənişlərinə, **8850,46** manat müavinət və iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə), **158560,51** manat DSMF-na, icbari tibbi sığortaya, işsizlikdən sığorta haqqına, **3417,31** manatı bank xidmətləri xərclərinə, **53538,96** manatı kitabxananın saxlanması üçün digər işlərin görülməsinə xərclənmişdir. Kitabxananın cəmi faktiki büdcə xərcləri **872 690,90** manat təşkil etmişdir.

Faktiki büdcə xərclərinin yekun cəmi **3 956 819,59** manat olmuşdur.

2024-cü ildə göstərdiyi xidmətlərə görə Əqli Mülkiyyət Agentliyinə **5 084 266** manat vəsait daxil olmuşdur. O cümlədən: Madrid Sazişinə uyğun olaraq ÜƏMT-nin Maliyyə Xidmətindən hesabına 2024-cü il üzrə **1440878,52** manat (**764554,03 fr**), Haaqa Sazişinə uyğun olaraq isə **24267,99** manat (**12877,00 fr**) vəsait daxil olmuşdur, Azərbaycan ərazisində qüvvədə olan Avrasiya patentlərinin qüvvədə saxlanılması üçün Avrasiya Patent Təşkilatının Avrasiya Patent Bürosundan Agentliyin hesabına daxil olan vəsaitin məbləği **1576434,69** manat (**88616522,50** rub) təşkil etmişdir.

İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərə görə **1672653,00** manat, audiovizual əsərin, fonoqramın, kompüter proqramının, məlumat toplusunun və kitabın nüsxələrinə yapışdırılması üçün nəzarət markasının verilməsinə görə **6641,70** manat, "Rəqəmli və Audiovizual Yayım Sənayesi" İctimai Birliyindən əsərlərin istifadəsinə görə daxil olan illik qonorar gəlirinin 5%-i **3390,00** manat, bank depoziti üzrə faiz gəliri **360000,00** manat təşkil etmişdir.

Agentliyin əldə olunan vəsait hesabına cəmi illik yekun xərci 2024-cü ildə **3217841,22** manat olmuşdur. O cümlədən, Aparatının işçilərinə (mükafat, maddi yardım, əmək haqqına əlavələr və onlardan məcburi tutulmalar, işçilərin icbari sığortası) **430406.74** manat, DSMF (0,5% və 22%), İcbari tibbi sigorta **104902,27** manat, ezamiyyə və təhtəl hesab xərclərinə **26887** manat və işçilərin icbari sığortasına **7809,12** manat xərclənmişdir. Agentliyin Mərdanov qardaşları, 124 ünvanında yerləşən inzibati binasının saxlanması ilə bağlı xərclər **149940,62** manat olmuşdur (o cümlədən: mühafizə xərci - **105712,19** manat, elektrik enerji xərci -**27085,6** manat, təbii qaz haqqı- **8574,00** manat, su haqqı – **5268,00** manat, dezinfeksiya xərcləri **944,00** manat, kommunal xidmət– **360,00** manat və əmlak sığortası **1996,83** manat). İl ərzində avadanlıqların alışına **7627,99 manat**, digər maşın və avadanlığa və xidmət göstərilməsi görə alınmasına **3384,1** manat, qəzet və jurnallara abunə, sayt, sms paket yazılmasına **6634,02** manat, dəftərxana xərclərinə **7246,42** manat və təsərrüfat xərclərinə **4261,31** manat vəsait sərf olunmuşdur. Nəqliyyat vasitələri ilə bağlı xərclər **66530,00** manat (avtomobil sığortası, təmiri, yanacaq haqqı, rüsum), cari təmir və digər təmir xidmət xərcləri **5935,68** manat, rabitə xərcləri **9205,02** manat, internet abunəsi **7402,36** manat, poçt və yük daşıma xidməti üzrə xərclər **1396,71** manat, proqram təminatlarına xidmət üzrə **20650,00** manat, digər xərcləri (suvenirlər, kitab alışı, mətbəə xərcləri, reklam, tədbirlərin keçirilməsi, dövlət qulluğu üzrə müsahibələrin keçirilməsinə cəlb olunan müstəqil ekspertin əməyinin ödənilməsi ilə bağlı xərclər, audit xidməti və s.) **59630,48** manat, bank xərcləri **3299,43** manat, **128000,00** manat

mənfəət vergisi və s. təşkil etmişdir. **393200,00** manat məbləğində köhnəlmə (amortizasiya) xərcləri olmuşdur.

İddiaçılar tərəfindən səhv olaraq ödənilmiş **3351,00** manat vəsaitin geri qaytarılması təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanının 4.8-ci bəndinə uyğun olaraq, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin və Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin 2024-cü il üçün saxlanma xərcləri Agentliyin fəaliyyəti nəticəsində əldə olunan vəsait hesabına ödənilmişdir. O cümlədən Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin saxlanılma xərcləri **356486,79** manat, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin saxlanılma xərcləri **1252574,45** manat, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası üçün saxlanma xərcinə əlavə **29111,54** manat, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Texnoloqiyaların Kommersialaşdırılması və Transferi Mərkəzinin saxlanılma xərcləri **131968,59** manat təşkil etmişdir.

Hesabat ilində "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri göstərdiyinə və hüquqi hərəkətləri həyata keçirdiyinə görə Agentlik tərəfindən dövlət büdcəsinə **214734** manat dövlət rüsumu köçürülmüşdür.

Qanunvericiliklə müəyyən edilmiş xidmətlərin göstərilməsinə və digər işlərin yerinə yetirilməsinə görə 2024-cü ildə Agentliyə daxil olan xidmət haqlarının məbləği **5 084 266** manat, xərclər isə **3 217 841** manat olmuşdur. Əldə edilmiş **1 866 424** manat gəlir hesabına Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının yerləşdiyi və uzun illər təmir edilməmiş binalarda təmir - bərpa işlərinin aparılması nəzərdə tutulur.

**21. Müəllif qonorarı.** Kollektiv idarəetmə təşkilatlarının yaradılmadığı sahələrdə Agentlik bu işi təşkil etmişdir. Hesabat ilində müəlliflərin əmlak hüquqlarının idarəçiliyini təmin etmək nəticəsində (teatr-tamaşa təşkilatlarında əsərlərdən istifadəyə görə) 182767,55 manat müəllif qonorarı yığılmış və təyinatı üzrə bölgüsü aparılmışdır. Azərbaycan müəlliflərinə hesablanmış qonorarın məbləği 136011,78 manat, xarici müəlliflər üçün 16513,55 manat, dövlət varidatı sayılan əsərlərdən istifadəyə görə qonorarın məbləği 7717,99 manat, gəlir vergisi 21594,70 manat, bank xidmətləri üçün xərclərin məbləği 929,53 manat təşkil edir. Agentliyin hesabına daxil olmuş 178285,74 manat müəllif qonorarından köçürmə yolu ilə 116803,16 manat Azərbaycan müəlliflərinə, 17046.40 manat xarici müəlliflərə, qonorardan tutulmuş gəlir vergisi 21594,70 manat vəsait dövlət büdcəsinə, 416,03 manat bank xidməti üçün və 513,50 manat kart sifarişi üzrə ödəniş köçürülmüşdür.

Son illər xidmət göstərilən müəlliflərin sayında da artım müşahidə olunmuşdur. Məsələn, 2018-ci ildə xidmət göstərilən müəlliflərin sayı 3380, 2019-cu ildə 3430, 2020-ci ildə 3470, 2021- ci ildə 3518, 2022-ci ildə 3549, 2023-cü ildə 3607 nəfər, 2024-cü ildə isə 4213 nəfər olmuşdur. 2024-cü ildə Agentliyin qonorar yığımını əhatə etdiyi istifadəçi təşkilatlarda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan teatr-tamaşa müəssisələrində müəllif qonorarının hesablanması və ödənilməsi üzrə müəyyən iş aparılmışdır. Göstərilən dövr ərzində əsərlərdən istifadəyə görə qonorar ödəməyən, həmçinin qonorar üzrə borc qalıqları olan teatr-tamaşa müəssisələri ilə əlaqə saxlanılmış, müəllif qonorarının düzgün hesablanması və vaxtında Agentliyin hesabına köçürülməsini təmin etmək üçün operativ araşdırmalar aparılmış, müvafiq üzləşmə aktları tərtib edilmiş, borc qalıqlarının miqdarı dəqiqləşdirilmişdir.

Qonorarın hesablanması ilə bağlı 679 nəfər müəllifin müraciətlərinə baxılaraq, müvafiq izahatlar verilmişdir. Qonorar hesablanmış 526 nəfər müəllifə çatacaq qonorar məbləğlərinin elektron kartları vasitəsi ilə ödənilməsi təmin edilmişdir.

Hesabat ilində audiovizual əsərlərdən istifadəyə görə “Azərbaycan Kinorejissorlar Gildiyası” İctimai Birliyi tərəfindən **119280** manat, musiqili əsərlərdən istifadəyə görə “Müəllif Hüquqları Uğrunda” İctimai Birliyi tərəfindən **205180** manat, ifaçılar və fonoqram istehsalçıları üçün “Rəqəmli və Audiovizual Yayım Sənayesi” İctimai Birliyi tərəfindən **114829** manat və müsiqili əsər müəllifləri üçün “Azərbaycan Müəllifləri” İctimai Birliyi tərəfindən **11.000** manat qonorar yığılmışdır.

2024-cü il ərzində Agentliyin Aparatının və Agentliyin tabeliyində olan qurumların təchizat və təsərrüfat xidməti üzrə işləri həyata keçirmişdir.

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun olaraq Agentliyin balansında olan nəqliyyat vasitələri üçün dərman vasitələrinin, tibbi sarğı ləvazimatlarının (Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıya uyğun), yanğınsöndürən balonların alınması, doldurulması və yanğınsöndürmə qum şiti dəstlərinin, Agentliyin Aparatı üçün içməli suyun, kartriclərin doldurulması, sazlanması və təmiri xidmətinin satın alınması ilə bağlı kotirovka sorğuları keçirilmişdir.

**22. Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi üzrə.** 2024-cü ildə Əqli Mülkiyyət Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi (ƏMHTM) Nizamnaməsinin tələblərinə uyğun qurduğu fəaliyyəti aşağıdakı istiqamətləri əhatə edib:

**22.1. Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi istiqamətində görülən işlər:**

“Xəzər” Universiteti 5 (beş) il müddətinə “ISMN (International Standard Music Number - not nəşrlərinin və musiqi əsərlərinin yazıldığı audio-video nəşrlərin beynəlxalq standart eyniliyini müəyyən edən nömrə) üzrə Beynəlxalq Agentliyin Azərbaycan Respublikası üzrə Milli Mərkəzi” kimi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan (akkreditasiyadan) keçirilib.

“Xəzər” Universiteti 5 (beş) il müddətinə “ISBN (International Standard Book Number - kitabın beynəlxalq standart eyniliyini müəyyən edən nömrə) üzrə Beynəlxalq Agentliyin Azərbaycan Respublikası üzrə Milli Mərkəzi” kimi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan (akkreditasiyadan) keçirilmişdir. 2024-cü ildə 332 kitaba ISBN kodu təqdim edilib.

ISSN Milli Mərkəzi tərəfindən hesabat dövründə 19 dövri nəşrə ISSN kod, 20 elmi jurnala isə DOİ (obyektin rəqəmsal identifikatoru) indeksi verilmişdir.

**22.2. Müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılmaq üçün Nəzarət markalarının tətbiqi istiqamətində görülən işlər:**

Əvvəldə qeyd edildiyi kimi, cari ildə müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin nüsxələrinə yapışdırılması üçün nəzarət markalarının verilməsi istiqamətində Dövlət İmtahan Mərkəzinin buraxdığı kitabların nüsxələrinə yapışdırmaq üçün 13 000 (on üç min) ədəd, Dövlət Statistika Komitəsinə buraxdığı kitabların nüsxələrinə yapışdırmaq üçün 4 168 (dörd min yüz altımış səkkiz) ədəd, “Abituriyent” jurnalının nüsxələrinə yapışdırmaq üçün 25 800 (iyirmi beş min səkkiz yüz) ədəd, fiziki şəxs – Talıbov Əziz Maşalla oğluna 1 500 (min beş yüz) ədəd, ümumilikdə 44 468 (qırx dörd min dörd yüz altımış səkkiz) ədəd nəzarət markası çap edilərək təhvil verilib.

Belə ki, 2024-cü ildə cəmi 44 468 (qırx dörd min dörd yüz altımış səkkiz) ədəd, ümumilikdə 567 842 (beş yüz altımış yeddi min səkkiz yüz qırx iki) ədəd nəzarət markası çap edilib.

Şöbə tərəfindən mütəmadi olaraq çap məhsullarının, avadanlığının və həmin avadanlıq ilə birgə işləyən kompüterlərin proqram təminatlarının normal işləməsi üçün lazımı tədbirlər görülüb.

Nəzarət markaları və beynəlxalq standart eyniləşdirmə nömrələri şöbəsində Nəzarət Markasının uçotu, təhvil verilməsi jurnalı və Dövlət reyestri, verilməsi ilə bağlı məlumatların elektron bazaya daxil edilməsi, çapının həyata keçirilməsi, istifadəyə verilməsi, (işlənən) işlənmiş və korlanmış Nəzarət Markalarının uçotu işi aparılıb.

**22.3. Kollektiv idarəetmə təşkilatları ilə aparılan işlər.** Azərbaycanda müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən 4 (dörd) ictimai birlik fəaliyyət göstərir:

"Azərbaycan Professional Kinorejissorlar Gildiyası";

"Azərbaycan Müəllifləri" İctimai Birliyi;

"Müəllif Hüquqları Uğrunda" İctimai Birliyi;

"Rəqəmli və Audiovizual Yayım Sənayesi" İctimai Birliyi.

Kollektiv idarəetmə sahəsində fəaliyyət göstərən təşkilatlarla səmərəli fəaliyyətin qurulması istiqamətində işlər hesabt dövründə də davam etdirilib.

Şəxsi məqsədlər üçün surətçıxarmaya görə qonorarların yığılması istiqamətində "Azərbaycan Professional Kinorejissorlar Gildiyası" İctimai Birliyi ilə birgə bir sıra tədbirlər həyata keçirilib. Audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılması üçün istifadə olunan maddi daşıyıcıları idxal edən və onları ölkədə istehsal edən subyektlər müəyyən olunmuş, onlar "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri barədə məlumatlandırılmış, eləcə də Gildiya tərəfindən "Kontakt Home"-a qarşı məhkəmədə iddia qaldırılmışdır.

**22.4. Rəqəmli şəbəkələrdə Azərbaycan folkloru nümunələrinə hüquqların qorunması** ilə bağlı hüquqların qlobal şəbəkədə idarə edilməsi sistemində (DRM-də) dəyişiklik və əlavələr edilib. Mərkəzin müvafiq sistemində 897 mətn, 1052 audio, 284 video və 150 şəkil ilə birlikdə 2383 əsər və 447 müəllif qeyd olub. Aidiyyəti bölmələrə audio və video formatında 240 yeni əsər (239-u audio, 1 video formatında olmaqla ) əlavə edilib. Əvvəllər qeyd olunmamış 37 yeni müəllif də DRM-ə əlavə olunub.

Hazırda sistemdə 90 İnstrumental muğam, 200 qoşma, 26 layla, 2 bayatı, 50 nağıl, 17 təcnis, 4 divan, 67 gəraylı, 10 müxəmməs, 16 dəraməd, 5 bərdaşt, 8 oxşama, 2 saqinamə, 15 rəvayət, 4 ailə xalq dastanı, 12 məhəbbət dastanı, 9 qəhrəmanlıq dastanı, 228 qəzəl, 268 xalq mahnısı, 52 xalq rəqsi, 143 Azərbaycan xalq rəqsləri, 27 simfonik muğam, 92 aşıq havası, 18 instrumental aşıq musiqisi, 23 Azərbaycan diringisi, 161 rənglər, 103 Azərbaycan təsnifləri, 33 Köçəri rəqs, 150 şəkil, 110 caz, 278 muğam, 68 muğam dəstgah, 54 audio, 32 mətn, 3 Azərbaycan dastanı, 3 video əsəri və 484 müəllifin adı daxil edilib.

Sistemə ümumilikdə 2623 əsər - 897 mətn, 1291 audio, 285 video və 150 şəkil yerləşdirilmişdir.

**22.5. Təlim və maarifləndirmə.** Mərkəzin əməkdaşları müxtəlif konfrans, seminar, təlim və s. tədbirlərdə fəal iştirak ediblər və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 6 (altı) sertifikatını alıblar.

"Əqli Mülkiyyət" jurnalının 6-cı nömrəsi çap olunub və Agentliyin saytında yerləşdirilib.

**22.6. Maliyyə və təsərrüfat fəaliyyəti.** 2024-cü il üzrə Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin saxlanılması üçün Əqli Mülkiyyət Agentliyi tərəfindən 372 106.11 manat məbləğində vəsait köçürülmüşdür. Həmin vəsaitdən 370 min 199.74 manat xərclənmişdir (ilin

sonuna qalıq vəsaitin məbləği 3131.36 manat olmuşdur). Agentlik tərəfindən köçürülmüş vəsaitdən 277 983.38 manat işçilərin əmək haqqı ödənişlərinə və əməyin ödənişi ilə bağlı digər pul xərclərə sərf olunmuş, 1353.0 manat işsizliyə görə sığorta haqqı, 59 083.43 manat Dövlət Sosial Müdafiə Fonduna ayırmalar üçün, 5413.7 manat İcbari Tibbi Sığorta haqqı üçün ödənilmişdir.

**22.7. Kargüzarlıq və kadrlarla iş üzrə.** 2024-cü il ərzində elektron sənəd dövriyyəsindən Mərkəzə birbaşa və Əqli Mülkiyyət Agentliyindən 530 sənəd daxil olmuşdur. 327 sənəd bağlanılıb, 108 sənəd təsdiqlənib, 64 sənəd gecikərək bağlanıb, 12 sənəd gecikib, 12 sənəd əsassız sayılıb. 6 sənəd üzrə hazırda icra davam etdirilir.

Agentlik təfəfindən Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə 4 nəfər (2 nəfər ştatdankənar) işə qəbul edilib, 2 nəfərin əmək müqaviləsinə öz xahişləri ilə xitam verilib.

Mərkəz sürətli internet, müasir kompüter, printer və skanerlərlə təmin edilib.

**23. Texnologiyaların kommersiyalaşdırılması və transferi.** Ölkəmizdə innovativ inkişafın dəstəklənməsi, tətbiqi xarakter daşıyan ixtiraçılıq fəaliyyətinin inkişaf etdirilməsi, eləcə də elm və sənaye arasında dayanıqlı bağlantının təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 aprel tarixli 1308 nömrəli Fərmanı əsasında yaradılmış Əqli Mülkiyyət Agentliyinin tabeliyində Texnologiyaların Kommersiyaşdırılması və Transferi Mərkəzi elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin qurulması, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artması və tətbiqi xarakter daşıması üçün bir sıra işlər həyata keçirir.

Mərkəzin əməkdaşlarının texnologiyaların transferi və kommersiyalaşdırılması sahəsində nəzəri və təcrübi biliklərinin artırılması məqsədilə “Texnologiyaların kommersiyalaşdırılması və transferi, habelə əqli fəaliyyət nəticələrinin qorunması və qiymətləndirilməsi” mövzusunda daxili təlimlərə cəlb olunmuşlar. İxtiraçıların məlumatlılığının artırılması üçün isə müxtəlif təlim və sərgilərin keçirilməsi məqsədilə işlərə başlanılmış, Mərkəz müvafiq araşdırmalar aparmış, təlim proqramı, sərgiyə çıxarılacaq ixtiraların siyahısı və müvafiq iş planları hazırlamışdır.

Bununla əlaqədar, texnologiyaların vahid platformada cəmlənməsi, potensial investorların və digər maraqlı tərəflərin texnologiyalara çıxışının təmin olunması, ixtiraçılar və startaplar tərəfindən müraciətlərin qəbulu, müvafiq sahədə maarifləndirmə istiqamətində tədbirlər həyata keçirilmişdir.

2024-cü il dekabr ayında Mərkəzin rəsmi internet saytı istifadəyə verilmişdir. İxtiraçılar, startap sahibləri, elmi-tədqiqat mərkəzləri, ali təhsil müəssisələri və istehsal müəssisələrinin nümayəndələri, eləcə də investorlar/sponsorlar onları maraqlandıran sualların cavabını bu saytda tapa və müvafiq sahə ilə bağlı rahatlıqla Mərkəzə müraciət edə biləcəklər.

Bundan əlavə, Linkedin, Instagram və Facebook sosial şəbəkələrində Mərkəzin sosial media hesabları yaradılmışdır. Qeyd olunan sosial media hesablarında müntəzəm olaraq Agentlik və Mərkəzin fəaliyyəti barədə paylaşımlar edilməkdədir.

**23.1. Elm və sənaye arasında bağlantının təmin olunması istiqamətində görülmüş işlər.** Mərkəz müxtəlif ali təhsil müəssisələri və elmi tədqiqat institutları ilə qarşılıqlı əlaqənin təmin olunmasını fəaliyyətinin əsas prioritetlərindən biri olaraq nəzərdə tutmuşdur. 2024-cü il ərzində bir çox ali təhsil müəssisəsi və elmi tədqiqat institutu ilə potensial əməkdaşlıq barədə işgüzar müzakirələr aparılmışdır. Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, ADA Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət İqtisat Universiteti və Sumqayıt Dövlət Universiteti olmaqla ümumilikdə 9 ali təhsil müəssisəsinin nümayəndələri ilə görüşlər keçirilmişdir.

Bakı Dövlət Universitetinin Texnologiyaların Transferi və İnnovasiyalar Mərkəzinin nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə texnoloji innovasiyalar sahəsində elmi tədqiqatların və startap layihələrinin dəstəklənməsi, universitetin yüksək kommersiyalaşdırma potensialı olan elmi tədqiqat nəticələrinin kommersiyalaşdırılması və transferi ilə bağlı məlumat mübadiləsinin aparılması, qarşılıqlı informasiya dəstəyi göstərilməsi kimi məsələlər müzakirə edilmişdir. Əsas problemin maddi texniki bazanın zəif olması, potensial ixtiraların prototiplərinin hazırlanması üçün vəsait çatışmazlığı olduğu müəyyən edilmişdir.

Tərəflər arasında Memorandumun imzalanması ilə bağlı fikir müsbət olmuşdur.

Azərbaycan Texniki Universitetinin Smartech İnnovatorlar Mərkəzi və Texnoloji Transfer Ofisinin nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə universitetin investorlar və istehsalçılarla əlaqələri, Mərkəzin bu prosesdə üstlənə biləcəyi rol, akademik heyət və tələbələr arasında texnologiyaların kommersiyalaşdırılması və transferi sahəsində məlumatlılığın artırılması və elmi-tədqiqat nəticələrinin tətbiqi məsələləri müzakirə edilmişdir. Əsas problemlərin sənaye ilə birbaşa əməkdaşlığın və əqli mülkiyyət ilə bağlı universitetdaxili hüquqi mexanizmin olmaması (yəni, universitetdən çıxan ixtiralara universitetin müəlliflikdə payı olması) və ixtiraların əksəriyyətinin kommersiyayönümlü olmaması müəyyənləşdirilmişdir.

Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, universitetin nəzdində fəaliyyət göstərən SmartTech İnnovatorlar Mərkəzinin rəhbəri Kərim Tahiroğlu, Texnoloji Transfer Ofisinin rəhbəri Yadullah Babayev arasında keçirilən işgüzar görüşdə elm və sənaye arasında qarşılıqlı münasibətlərin əhəmiyyəti və Mərkəzin bu istiqamətdə körpü rolu oynaya biləcəyi, tərəflər arasında memorandum imzalanması məsələsi müzakirə edilmişdir.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Eazi Start Startap Mərkəzi və Rəqəmsal İnkişaf və İnnovasiya Mərkəzinin nümayəndəsinin iştirakı ilə keçirilən görüşdə layihələrin prototipinin mövcudluğu, onların tətbiqi, universitetdə maarifləndirici seminarların təşkili, akademik heyətin və tələbələrin sənaye müəssisələri və laboratoriyalarla əlaqələrinin yaradılması kimi mövzularda ətraflı fikir mübadiləsi aparılmışdır. Əsas problem kimi maddi texniki bazanın zəifliyi, universitetin potensial startaplara dəstək verə bilməsi üçün kifayət qədər vəsaitinin olmaması, eləcə də vəsaitin sərf edilməsi ilə bağlı hüquqi mexanizmin olmaması və ixtiraların əksəriyyətinin kommersiyayönümlü olmaması müəyyənləşdirilmişdir.

ADA Universitetinin İnnovasiya Mərkəzinin, eləcə də universitetin strukturuna daxil olan digər bölmələrin nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə ölkəmizdə texnologiyaların kommersiyalaşdırılması və transferi sahəsinin mövcud vəziyyəti və inkişaf perspektivləri, tərəflər arasında əməkdaşlıq, məlumat mübadiləsi və birgə dəstək kimi məsələlər müzakirə edilmişdir. Əsas problem kimi universitetin İnnovasiya Mərkəzinin hazırda tam şəkildə fəaliyyət göstərə bilməməsi və universitetin sənayeyə birbaşa çıxışının və əqli mülkiyyət ilə bağlı universitetdaxili hüquqi mexanizmin olmaması müəyyənləşdirilmişdir. Tərəflər aktiv şəkildə məlumat mübadiləsi aparmaqla bağlı işçi qaydada razılığa gəlmişdir.

Bakı Mühəndislik Universitetinin Texnoparkının və Elm və innovasiya şöbəsinin nümayəndələri ilə keçirilən görüşdə elmi tədqiqat nəticələri ilə sənaye arasındakı əlaqə, yerli məhsullara olan inamsızlıq, sənayenin ehtiyaclarının aşkarlanaraq universitetlərə çatdırılması, əqli mülkiyyət hüquqlarının qorunması kimi bir sıra məsələlərdə məlumat mübadiləsi aparılmışdır. Universitet nümayəndələri qarşılıqlı faydaya əsaslanan əməkdaşlıqda yüksək səviyyədə istəkli olduqlarını bildirmişdir. Əsas problem kimi sənayeyə birbaşa çıxışın və sənayedən hər hansı problemin həlli üçün təklifin olmaması, dövlət layihələrinin işlənməsi ilə bağlı təkliflərin olmaması, ixtiraların əksəriyyətinin kommersiyayönümlü olmaması, əqli mülkiyyət obyektinin ötürülməsi ilə bağlı universitetdaxili hüquqi mexanizm yoxluğu müəyyənləşdirilmişdir.

Texnoparkın rəhbəri, həm də startap ekosistemi ilə birbaşa əlaqəli olan və bu sahədə layihələr icra edən "Yeni Fikir" MMC-nin təsisçisi İsa Qasımov Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinə podratçı qismində ölkə miqyasında texnologiyaların transferi və kommersiyalaşdırılması ilə bağlı təlimlər vermək üçün peşəkar heyətinin olduğunu və bu istiqamətdə əməkdaşlıqda maraqlı olduğunu bildirmişdir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnnovativ Biznes İnkubator Mərkəzinin nümayəndələri ilə keçirilən görüşdə Mərkəzin elm və sənayenin birləşdirilməsi prosesindəki körpü rolu, universitetin aktiv innovativ layihələri, akademik sahibkarlıq və biliyin transferi anlayışları, texnologiyaların kommersiyalaşdırılması və transferi sahəsi ilə bağlı məlumatlılığın artırılması kimi məsələlər ətrafında məlumat mübadiləsi aparılmışdır. Potensial birgə əməkdaşlıq üçün tikinti sənayesi üzrə universitetin verə biləcəyi mümkün həllərlə bağlı (məlumatın sənayeyə ötürülməsi məqsədilə) məlumat verilməsi istənilmişdir.

Bakı Ali Neft Məktəbinin İnnovasiya və Tədqiqatlar Mərkəzinin nümayəndəsi ilə keçirilən görüş zamanı elmi-tədqiqat mühitinin yaradılması və kommersiyalaşdırma fəallığının artırılması, startap layihələrinin və texnoloji innovasiyalar sahəsində elmi tədqiqatların dəstəklənməsi, tərəflərdən birinin təşkil etdiyi konfrans, simpozium, seminar, sərgi və digər aidiyyəti tədbirlərdə digər tərəfin iştirakına dəstək göstərilməsi kimi məsələlər müzakirə edilmişdir. Əsas problem olaraq əqli mülkiyyət ilə bağlı universitetdaxili hüquqi mexanizmin olmaması müəyyənləşdirilmişdir.

Azərbaycan Dövlət İqtisad Universitetinin Texnologiya transfer şöbəsinin nümayəndəsi ilə keçirilən görüşdə ixtiraçılığın təşviqi, patentin alınma müddəti, hüquq sahibləri üçün istehsal sahəsi təcrübəsi, universitetin akademik heyətinin və tələbələrinin laboratoriyalara çıxışı və s. kimi mövzularda fikir mübadiləsi aparılmış və tərəflər arasında potensial əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Birgə əməkdaşlığa dair memorandumun imzalanmasına müsbət yanaşıldığı bildirilmişdir. Əsas problem kimi sənayeyə birbaşa çıxışın olmaması və ixtiraların əksəriyyətinin kommersiyayönümlü olmaması müəyyənləşdirilmişdir.

Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi Neft Qaz Elmi-Tədqiqat Layihə İnstitutu, Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırma Elmi-Tədqiqat İnstitutu, Elm və Təhsil Nazirliyinin tabeliyində İnformasiya Texnologiyaları İnstitutunun nümayəndələri ilə görüşlər keçirilmişdir.

Ekosistemdə mövcud boşluqların müəyyən edilməsi və nəticəyə yönəlik strategiyanın, eləcə də əməkdaşlıq və sinerji imkanlarının müəyyənləşdirilməsi məqsədilə ekosistemdə rol oynayan digər qurumlarla (sənaye, dövlət təşkilatları və s.) əməkdaşlıq edilmişdir. Bununla əlaqədar, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, "Caucasus Ventures" Vençur Fondu, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki "İnnovasiyalar Mərkəzi" MMC, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Elm və Təhsil Nazirliyinin nəzdində Yüksək Texnologiyalar Parkı olmaqla ümumilikdə beş qurumla intensiv görüş və müzakirələr təşkil olunmuşdur. Sözügedən qurumlardan Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası tərəfindən Mərkəzlə razılaşdırma məqsədilə Memorandum layihəsi təqdim olunmuşdur.

Mərkəzin rəhbərliyi ilə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov və Konfederasiyanın prezidentinin müşaviri Ziya Hacılı arasında keçirilən işgüzar görüşdə texnologiyaların kommersiyalaşdırılması sahəsinin, o cümlədən startap ekosisteminin mövcud vəziyyəti və inkişaf perspektivləri, elm və sənaye arasında qarşılıqlı münasibətlərin əhəmiyyəti və bu istiqamətdə potensial əməkdaşlıq imkanları müzakirə edilmişdir.

Daha sonra tərəflər arasında sənayenin tələblərinin universitetlərə və elmi-tədqiqat institutlarına ötürülməsini təmin etməklə real tələbata əsaslanan tədqiqatın inkişaf etdirilməsi,

sahibkarların yeni texnologiyalara və innovasiyalara çıxışının artırılması, potensial istehalçı və investor bazasına çıxışın əldə edilməsi, sahibkarlar arasında texnologiyaların kommersiyalaşdırılması və transferi, eləcə də əqli mülkiyyətin qorunması barədə maarifləndirmə aparılması, patentləşdirmənin təşviqi kimi əməkdaşlıq istiqamətləri müəyyənləşdirilmişdir.

Bursa Uludağ Universitetinin Texnologiyaların Transferi Ofisinin direktoru Recep Eren, direktorun köməkçisi Nihal Sağlam ilə Mərkəzin rəhbərliyi arasında keçirilən görüşdə ölkəmizdə və Türkiyədə texnologiyaların kommersiyalaşdırılması və transferi sahəsinin cari vəziyyəti və inkişaf perspektivləri ilə bağlı məlumat mübadiləsi aparılmış, potensial əməkdaşlıq imkanları müzakirə edilmişdir.

Mərkəz tərəfindən yaradılan ali təhsil müəssisələri, elmi tədqiqat institutları, inkubasiya və akselerasiya mərkəzləri, texnoloji transfer ofisləri, istehsal sənaye müəssisələri ilə bağlı vahid baza sistemi daha da təkmilləşdirilmişdir.

**23.2. Hüquq sahibləri ilə işin təşkili və kommersiyalaşdırma istiqamətində görülmüş işlər.** Layihələrin kommersiya potensialının qiymətləndirilməsi, potensiallı layihələrin müəyyənləşdirilməsi və onların kommersiyalaşdırılmasına dəstək məqsədilə vahid məlumat bazası formalaşdırılmış, 366 ixtira, 112 faydalı model və 409 startap layihəsi vahid reyestrə salınmışdır. Bununla yanaşı, texnologiyaların kommersiya potensialının qiymətləndirilməsi modeli yaradılmışdır.

311 ixtira, 103 faydalı model və 245 startap layihəsi ilkin baxışdan keçirilmişdir; 10 ixtira, 3 faydalı model müəllifi, eləcə də 11 startap sahibi ilə görüşlər keçirilmişdir. Görüş keçirilmiş layihələrin siyahısını təqdim edirik:

- İxtiralar: “Sellülozanın elektrokimyəvi ağardılması üsulu”, “Lifli pambıq çiyidlərinin çeşidlənməsi üçün üsul”, “Polimer kompozisiyası”, “Xam-pambıq buntunun yaradılma üsulu”, “Nar gilələrini qabıqdan ayıran qurğu”, “İkiqat superfosfatın alınma üsulu”, “Əriş saplarının navoya bağlanması üsulu”, “3D Printer”, “Optik-lifli sensor”, “İdman trenajoru”.
- Faydalı modellər: “Külək enerji hasili qurğusu – Kuleko”, “Çirkli havanın yaşayış binalarından uzaqlaşdıran qurğu”, “İşıqlandırma bordürü”.
- Startaplar: “Audiokitab”, “Azirrigation”, “Tibbi nəqliyyatın avtomatlaşdırılmış idarəetmə sistemi”, “Görmə əngəlli insanlar üçün yolda daha rahat olmasını təmin edən aparat (The Right Way)”, “Süni intellektlə ətraf mühitə avtomatik təsvir edən ağıllı eynəklərin yeni modeli”, “ALT Service” MMC, “E-legal” MMC, “Alimok” MMC, “Satelyzer”, “Taskilled”, “Intelligent Services And Solutions Company” MMC (Fasad yuma robotu), ZEEM elektrikli yükdaşıma velosipedi.

Yuxarıda adları qeyd olunmuş ixtira, faydalı model və startaplar arasından 6 layihə (“Külək enerji hasili qurğusu”, “Azirrigation”, “Görmə əngəlli insanlar üçün yolda daha rahat olmasını təmin edən aparat”, “Satelyzer”, “Fasad yuma robotu” və “ZEEM” elektrikli yükdaşıma velosipedi) üzərində aktiv iş aparılmış və ilkin araşdırmanın nəticəsinə dair arayış hazırlanmışdır.

Patent və startapların təhlili və onlara dəstək çərçivəsində kommersiyalaşdırma mexanizmləri üzrə lisenziya, sublisenziya və tərəfdaşlıq müqavilələrinin layihələri hazırlanmışdır.

Gənclər və idman nazirinin müavini M.Vasileva kommersiyalaşdırılmasına aktiv dəstək göstərilən və Agentliyin inzibati binasında quraşdırılan idman trenajoru ilə yerində tanış olmuş, ona qurğunun tətbiq imkanları, eləcə də üstünlükləri barədə məlumat verilmişdir.

“Azirrigation” ağıllı suvarma sistemi layihəsinə dəstək tədbirləri çərçivəsində bu sahədə geniş təcrübə sahibi olan “Şabran D” MMC ilə ikitərəfli və üçtərəfli görüşlər keçirilmişdir. Hazırda şirkət tərəfindən layihəyə investisiya imkanları dəyərləndirilir.

**24. Respublika Elmi-Texniki Kitabxanasının (RETK) fəaliyyəti.** RETK öz fəaliyyətini "Mədəniyyət haqqında" və "Kitabxana işi haqqında" Azərbaycan Respublikası qanunlarını və həmin qanunlarına əsasən qəbul edilmiş normativ hüquqi aktların, habelə Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsini və RETK-nın Əsasnaməsini rəhbər tutaraq keçirmişdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Bununla əlaqədar həyata keçirilən tədbirlər çərçivəsində RETK tərəfindən hesabat ilində aşağıda göstərilən maarifləndirmə işləri aparılmışdır:

2 fevral - Azərbaycan Gənclər Günü münasibətilə yanvarın 29-da "Gəncliyə yeni pəncərə" adlı konfrans keçirilmişdir. Konfransda müxtəlif qurumların nümayəndələri iştirak etmişlər.

Əqli Mülkiyyət Agentliyi tərəfindən elan edilmiş 2024-cü ilin aprel ayıda "Əqli Mülkiyyət Aylığı" günlərində "Yeni nəşrlər" adlı kitab sərgisi və 23 aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə Agentliyin Qərbi Azərbaycan İcması ilə birgə keçirdiyi "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını ifşa edir və ya Qərbi Azərbaycan torpaqları nədən bəhs edir" mövzusunda konfrans çərçivəsində isə "Nadir kitablar" fondunda saxlanılan qədim kitablardan ibarət sərgi təşkil edilib.

Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü və "Yaşıl dünya naminə həmrəy olaq!" BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) münasibətilə "Təbiətin harayı" mövzusunda tədbir və sərgi keçirilib. Tədbirdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji maarifləndirmə və kommunikasiya şöbəsinin müdiri S.Məmmədova, Milli Hidrometrologiya xidmətinin rəis müavini G.Abbasova Azərbaycan ərazisində ekosistemin tənzimlənməsi, işğaldan azad edilmiş ərazilərdə dağıdılmış ətraf mühitin bərpası haqqında layihələrin həyata keçirilməsindən bəhs edən videotəqdimatla çıxış ediblər.

Yeni dərs ili və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyası (COP29) ilə əlaqədar 2024-cü ilin 5-6 sentyabr tarixlərində RETK-nın Gəncə filialında dövri mətbuat, dərslik və yeni kitabların sərgisi keçirilmişdir. Sərgidə Gəncə şəhərində yerləşən ali və orta ixtisas məktəblərinin şagirdləri, tələbələri, professor-müəllim heyətinin təmsilçiləri iştirak etmişlər.

Respublika Elmi-Texniki Kitabxanası 2-8 oktyabr 2024-cü il tarixlərində EKSPO Mərkəzində Böyük Azərbaycan mütəfəkkiri Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş 10-cu Bakı Beynəlxalq Kitab Sərgisində Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun müəllifi olduğu əsərlər, dünya və Azərbaycan memarlıq tarixini əks etdirən nadir nüsxələr, COP29-un gündəliyində duran məsələlərə həsr olunmuş elmi-texniki və populyar ədəbiyyat nümunələri, müxtəlif kitab və jurnallar nümayiş olunmuşdur.

Azərbaycan Respublikasının Mədəniyyət naziri, Milli Məclisin deputatları, AMEA-nın prezidenti, elmi-tədqiqat müəssisələrin rəhbərləri, ali məktəblərin rektorları, sərgidə iştirak edən yerli və xarici iştirakçılar RETK üçün ayrılmış sərgi pavilyonunda nümayiş etdirilən nəşrlərlə tanış olmuşlar.

Oktyabrın 29-da Bakda Əqli Mülkiyyət Agentliyinin keçirdiyi "Əqli Mülkiyyət və İnnovasiyalar Yaşıl gələcək naminə" adlı konfrans çərçivəsində Azərbaycan, rus, ingilis və türk dillərində kitablar, jurnallar, atlaslar sərgilənmişdir.

AMEA-nın və Elm və Təhsil Nazirliyinin tabeliyində olan elmi-tədqiqat institutlardan RETK-nın fondlarına bir sıra elmi nəşrlər daxil olmuşdur. Misal kimi, "Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri", Riyaziyyat və Mexanika İnstitutunun Azərbaycan və ingilis dillərində nəşr olunan "Azərbaycan riyaziyyat jurnalı", "Riyaziyyat və Mexanika İnstitutunun əsərləri", Fizika İnstitutunun "Azərbaycan fizika jurnalı", "Fizika və lirika", həmçinin "Azərbaycan Milli Aerokosmik Agentliyinin xəbərləri" və başqa nəşrləri göstərmək olar.

Hesabat ilində RETK-nın fəaliyyəti barədə statistik göstəricilər 2023-2024-cü illər üzrə müqayisəli şəkildə aşağıda verilir:

**Oxucuların sayı:**
2023-cü il - **1949** nəfər 2024-cü il - **3474** nəfər

Kitabxananın fondunda saxlanılan nəşrlərin sayı:
**2023-cü il üzrə**
Ümumi say - **13.931.495** çap vahidi :
**O cümlədən:**
1. Kitab və kitabçalar - **293291** çap vahidi;
2. Dövri nəşrlər - **583831** çap vahidi;
3. Qəzet - **7678** nüsxə;
4. Xarici ədəbiyyat - **527** çap vahidi;
5. Xarici jurnal - **108631** çap vahidi;
6. Avtoreferatlar - **10040** çap vahidi;
7. Elmi-texniki informasiya xarakterli materiallar - **634294** çap vahidi;
8. Patent sənədləri - **12293203** sənəd.

**2024-cü il üzrə**

Ümumi say - **13.939.407** çap vahidi;
**O cümlədən:**
1. Kitab və kitabçalar - **294287** çap vahidi;
2. Dövri nəşrlər - **584456** çap vahidi;
3. Qəzet - **11509** çap vahidi;
4. Xarici ədəbiyyat - **554** çap vahidi;
5. Xarici jurnal - **109412** çap vahidi;
6. Avtoreferatlar - **10430** çap vahidi;
7. Elmi-texniki informasiya xarakterli materialları - **634302** çap vahidi;
8. Patent sənədləri - **12294457** sənəd.

**RETK-nın Gəncə filialının fondunda** saxlanılan ədəbiyyatın ümumi sayı: 2023-cü ildə **16358**, 2024-cü ildə **16828** nüsxə.

Oxucuların sayı: 2023-cü il **743**, 2024-cü ildə **767** nəfər.

RETK-nın **patent fondunda** saxlanılan sənədlərin ümumi sayı: 2023-cü ildə **12293203,** 2024-cü ildə **12294457** sənəd.

Kitabxana fondlarının və ümumiyyətlə kitabxana işinin elektronlaşdırılması istiqamətində 2024-cü ildə aşağıdakı işlər həyata keçirilmişdir:

1. IRBIS 64+ (AKIS) proqram təminatı ilin əvvəlində yenilənmişdir;
2. Serverdə VB –verilənlər bazası (DATABASIS) yaradılmış və bu günə kimi daxil edilmiş ədəbiyyat daxili konvertasiya ilə VB-a yerləşdirilir;
3. Sistemin bütün modulları üzrə iş davam edir;
4. Sistemin yaddaşına daxil edilən ədəbiyyat e-kataloqda həmin andan onlayn olaraq öz əksini tapır;
5. E-kataloq zaman və məkan məhdudiyyəti olmadan istifadəçilər üçün açıqdır;

Sistem yaddaşında 10 verilənlər bazası yaradılıb. Ümumilikdə elektron kataloqa **227076** informasiya daxil edilib.

1. RK-Retro kitablar - **68.535** kitab;
2. YK-Yeni kitablar - **3.990** kitab;

3. AV- Avtoreferatlar - **7.366** kitab;
4. DM-Dövri mətbuat materialları - **18.764** analitik yazı;
5. TM-Tammətnli kitablar - **1.485** kitab (pdf);
6. JF-Jurnal fondu - **4.402** nüsxə jurnal;
7. NF-Nadir fond - **2.824** kitab;

**Qeyd:** İlk 5 səhifəsindən 10 səhifəsinədək skan edilərək saytda yerləşdirilib.

8. HA-Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş ədəbiyyat - **109** kitab;
9. RDR-Oxucu bazası - **2707** oxucu;
10. CMPL-Komplektləşdirmə - **1677** kitab;

**Qeyd:** RETK-nın saytında yerləşən elektron kataloq və elektron kitabxana səhifəsinə hər gün təxminən **150-200** oxucu daxil olur.

Şöbə e-kataloqa yeni ədəbiyyatın əlavə edilməsini nəzarətdə saxlayır, e-kataloqun WEB-şlyuz Z39-50 modulunun kitabxananın daxilində lokal şəbəkədə və onlayn olaraq **etk.copat** saytında fasiləsiz işini tənzimləyir. Eyni zamanda, IRBIS 64+AKIS serverində e-kitabxanaya mütəmadi olaraq tammətnli kitablar daxil edilir.

"COP29" adlı elektron resurs mütəmadi izlənərək davam etdirilir, elektron kitabxana saytda onlayn yayımlanır.

Kitabxana IRBIS 64+(AKIS) proqram təminatına qoşulmaqla həm də EBNIT Assosiasiyasına üzv olmuşdur. Bu nə deməkdir və bu bizə nə vəd edir?

Assosiasiyanın IP ünvanları ilə RETK-nın IP ünvanlarını mübadilə etməklə neft və neft məhsulları barədə XIX–XX əsrlərə aid ədəbiyyatın saxlandığı "Nadir kitablar fondu"nun e-katoloqunu geniş oxucu kütləsinə təqdim edilib. RETK Rusiya Publik Elmi-Texniki Kitabxanasının (ГПНТБ) elektron kataloq sisteminə qoşulmuşdur və Rusiyanın Regional Kitabxana Konsorsiumunun Birləşdirilmiş (Сводный) elektron kartotekasının "ARBICON" verilənlər bazasında elektron kataloqumuz yayımlanır.

Kitabxananın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər davam etdirilir.